**SƏDİ YARADANQULU**

# *VƏTƏNİN QUCAĞINDA*

***(ŞERLƏR)***

***BAKI – 2011***

*Bu kitabı nurani anam*
***ŞAHZADƏ** xanım Musa qızının əziz*
*xatirəsinə ithaf edirəm.*

**SƏDİ YARADANQULU**
(Sədi Qədiroğlu Yaradanquliyev, Borçalı)

# VƏTƏNİN QUCAĞINDA

***BAKI – 2011***

# MÜƏLLİFDƏN

Hər bir kəsin qəlbində, heç kimsənin eşitmədiyi sevgi nəğməri olduğu kimi, Vətən adlı bir nəğmə çələngi də yaşayır.

Hər kəs öz səsində, öz  avazında, öz havasında və öz vaxtında oxuyur bu nəğmələri. Kimi bulaq başında, kimi gözərinin yaşında, kimi yol gedərkən, kimi  dağlar qoynunda, kimi təbiətin seyrinə dalanda, kimi yurd yerində olanda oxuyur heç kimin eşitmədiyi səslə, avazla. Kimi şən oxuyur bülbüllər kimi, kimi pərişan oxuyur, qərib–qərib ötən durnar kimi.

Bir vaxtlar uça–uça getdiyim Vətən: ‑ Ulu Borçalımın səfalı bir kuşəsi olan Başkeçidin, tarixi unudumaz Salamməlik kəndi mənim üçün əl çatmaz, ün yetməz olub. İndi Vətəni röyalarda, xülyalarda, duşlarımda görürəm. Bir qədər təskinlik tapdıqdan sonra çəkilib bir qırağa özümə qapanıram, özüm–özümlə danışa–danışa. Bundan artıq əlimdən nə gəlir ki? Əlimdən gələn də, ürəyimin min qatından süzülüb gələn, dilimdə bəstələnən müxtəlif çalarlı Vətən haqqında nəğmələrindən başqa. Onları heç bir kəsin eşitmədiyi öz avazımla oxuya – oxuya əlimə qələm alıb bir–bir, sətir–sətir vərəqələrə köçürürəm: ‑ Vətən nəğmələrimi. Deyirəm; ‑ bir gün gələr, nə vaxtsa, kimlər oxuyar mənim Vətən haqqında yazdığım nəğmələri. Oxuya–oxuya öz nəğmələrinni də qatar mənim Vətən nəğmələrimə…

…Vətən, gör nə qədər əzizsənkinə,
Anam Ana deyb hər zaman sənə.
Necə vurulmayım, könül verməyim,
Mən, Anama Ana olan Vətənə…

Deyirəm; ‑ mənim yazdıqlarımı bu qarışıq zəmanədə, yurd–yuvasını itirmiş köçkünlərdən, yurdundan didərgin düşmüş qaçqınlardan, Vətən həsrətiylə qovrulan bacı – qardaşlardan heç olmasa bir nəfər oxuyub təskinlik taparsa mən də çox sevinərdim.

## *VƏTƏNİN QUCAĞINDA*

### VƏTƏN! EY VƏTƏN!

Qışda çən-duman olum,
Dizin-dizin sürünüm,
Yalında, güneyində.
Qırov olum, qar olum,
Dağların quzeyində.
Donaraq buza dönüm,
Bulaqların gözündə.
Vətən! Ey Vətən!

Yaz gələndə isinim,
Güneyində qar kimi.
Əriyib suya dönüm,
Axım gur çaylar kimi
Dağ-dərəndə, düzündə,
Vətən! Ey Vətən!

Bir balaca xal olum,
Güllərin yanağında.
Bircə damla bal olum,
Qönçənin dodağında.
Qayan kimi lal olum,
Daş olum qucağında.
Vətən! Ey Vətən!

Payız gələn vədələr,
Saralmış yarpaq olum.
Tökülüm torpağına,
Çürüyüb torpaq olum,
Qarışım torpağına,
Vətən! Ey Vətən!

17.10.1984

## ULU BORÇALIDA, ULU DİYARDA

Gözümü açandan dağlar görmüşəm,
Yamacı yamyaşıl, zirvəsi qarlı.
Bəhrəli bağçalar-bağlar görmüşəm,
Ağacı meyvəli, heyvalı, narlı,
Ulu Borçalıda, ulu diyarda.

Təpələr görmüşəm, dərəsi dərin,
Yazda keçmək olmur dağ çaylarından.
Çeşmələr görmüşəm, suları sərin,
Yayda içmək olmur, buz laylarından,
Ulu Borçalıda, ulu diyarda.

Təmasda olmuşam sərin havada,
İsinib dağların güneylərində.
Yayın istisində isti havada,
Sərinlik tapmışam quzeylərində…
Ulu Borçalıda, ulu diyarda.

Hər dağın özünün əzəməti var,
Birisi əl çatmaz, birisi uca.
Bizim bu dağların öz sərvəti var,
Meşəsi talalı, zirvəsi haça…
Ulu Borçalıda, ulu diyarda.

Yaşıl donlu çəmən, çöllər görmüşəm,
Baxanda adamın gözünü oxşar.
Min rəngli al-əlvan güllər görmüşəm,
Şairin qəlbinin sözünü oxşar…
Ulu Borçalıda, ulu diyarda.

Babalar görmüşəm, zəhimi ağır,
Quşda, quşluğuyla uçmaz yanından.
Göz qoyub hər  kəsə gözaltı baxır,

Bir cavan salamsız keçməz yanından…
Ulu Borçalıda, ulu diyarda.

Atalar görmüşəm, ərəndi-ərdi,
Başlarında «Çərkəz», «Buxara» papaq.
Oğullar görmüşəm, əroğlu-ərdi.
Çiyində «Aynalı», belində yaraq…
Ulu Borçalıda, ulu diyarda.

Nənələr görmüşəm, dili bal-şəkər,
Şirin laylaları düşməz dilindən.
Ulu keçmişlərdən söz salsa, əgər,
Neçə bayatılar qopar yerindən…
Ulu Borçalıda, ulu diyarda.

Analar görmüşəm, ağır taxtalı,
Özləri gözəldir, yerişi xanım.
Başları örpəkli, ağzı yaşmaqlı,
Baxışı ismətli, duruşu xanım…
Ulu Borçalıda, ulu diyarda.

Gözəllər görmüşəm buxağında xal,
Laləyə oxşayar al yanaqları.
Düşsən eşq oduna səndə qoymaz hal,
Qönçəyə bənzəyər bal dodaqları…
Ulu Borçalıda, ulu diyarda.

Çəmənlər görmüşəm, min bir çələngdə,
Nənəmin o böyük xalısı kimi.
İlməsi çiçək tək al – əlvan rəngdə,
Xınalı kəkliyin xınası kimi…
Ulu Borçalıda, ulu diyarda.

Şairlər görmüşəm həm sinədəftər,
Qələmi heç zaman düşməz əlindən.
Təbiətdən alıb eşqi-həvəsi,

Elin nəcmələri gəzər dilində…
Ulu Borçalıda, ulu diyarda.

Aşıqlar görmüşəm, sinəsində saz,
Çalanda qayalar oynar yerindən.
Şirin ləhcə ilə oxuduğu avaz,
Coşar çeşmə kimi, qaynar dərindən…
Ulu Borçalıda, ulu diyarda.

Minbir tarix yatır yaddaşlarında,
Ulu babaların izi yaşayır.
Qədim yurd yerində, hər daşlarında,
Türklərin yazılı sözü yaşayır,
Ulu Borçalıda, ulu diyarda…

## BURADA GÖZƏLLƏR AL YANAQ OLUR

Burada gözəllər al yanaq olur,
Lalələr rəngini onlardan alır.
Dodağı üstündə qara xal olur,
Baxıb qönçələr də həssəd aparır.

Burada gözəllər siyah tellidir,
Qaşları çatmadır, gözləri xumar.
Geniş gərdanlıdır, incə bellidir,
Ürəkdən güləndə gözlərin yumar.

Burada gözəllər işvə – nazlıdır,
Duruşu maraldır, baxışı çeyran.
Sözlü söhbətlidir, cürə sazlıdır,
Görsən gül üzünü olarsan heyran.

Burada gözəllər çiçək tək təmiz,
Bülbülü çoxalar qönçə çağında.

Həlim xəsiyyətli, mehriban, əziz,
Gəzməyi sevərlər, ay işığında.

Burada gözəllər sonalar kimi,
Hərəsi bir qərib qonağa bənzər.
Köçər payız vaxtı durnalar kimi,
Hər biri bir evi, bir ömrü bəzər.

Burada gözəllər könlümü oxşar,
Sevib-sevilməkdir, eşqi, amalı.
Birisi Sə'dinin ruhunu oxşar,
Özü bir mələkdir, aydı camalı.

## DİNƏR TƏBİƏT

Buradan təbiət gözəl tamaşa,
Gözəllər seyr edər bulaq başından.
Binələr yan-yana, dəyələr qoşa,
Nənələr sac asar ocaq başında.

Tüstü burum - burum, ocaqlar yanar,
Dələrək bağrını zülmət geçənin.
Uzaqdan - uzağa şimşəklər çaxar,
Şəfəqə bürüyər zümrüd gecəni.

Baxaraq göylərə subay gözəllər,
Axtarar hər biri, bəxt ulduzunu.
Taleyni Tanrıdan uman gözəllər,
Əl açır göylərə, tutub üzünü.

Doğanda Şərqdən bədirlənmiş Ay,
Gecəni döndərər lap süd rənginə.
O başdan bulaqlar, oyananda çay,
Düşər şəlalələr öz ahənginə.

Oyanar gözəllər, səhər mehilə,
Darayar saçını, qıyar gözünü.
Güllərin üstünə düşən şeh ilə,
Yuxulu gözəllər yuyar üzünü.

Bülbüllər ötüşər, sökülәndə dan,
Oyanar yuxudan, gülər təbiət.
Çanlanar çiçəklər, güləndə hər yan,
Çalar nəğməsini, dinər təbiət.

## ORDA GÜNƏŞ AL-QIRMIZI DOĞARDI (SƏHƏR-SƏHƏR SÖKÜLƏNDƏ DAN YERI)

Orda günəş al-qırmızı doğardı,
Buludları yandırardı batanda.
Obalara dağlar kölgə salardı,
Günəş gedib öz evində yatanda.

Ay doğanda nur saçardı hər yana,
Zülmət gecə süd rənginə dönərdi.
Göy üzündə o, bərq vuran ulduzlar,
Səhərəcən elə yanıb, sönərdi.

Bir sehirli nağıl idi gecələr,
Dörd tərəfdə bir sakitlik sürərdi.
Sirri idi başdan-başa gecələr,
Örpəyini yer üzünə sərərdi.

Gecə quşu tez gələrdi həvəsə,
Yarpız üstə «yanar böcək» yanardı.
Çəyirtkələr verərdilər səs-səsə,
Gündüzlər də yarpaq altda yatardı.

Səhər-səhər sökülәndə dan yeri,
«Karvanqıran» doğardı lap o, başdan.
Gecə yığıb örpəyini gedəndə,

Xoruzlar da banlayardı o,  başdan.

Çəmənliyə səhər şehi düşəndə,
Başdan-başa yuyunardı çiçəklər.
Oyananda dağlar mehi yerindən,
Sığallanıb daranardı çiçəklər.

## BORÇALI ÖVLADIYAM

Çeşmələr görən gözüm,
Çaylar axan qanımdır.
Xəzər mavi dənizim,
Kür-Araz qanadımdır.
Göy-göl, Gümüşün gölü,
Mənim ala gözümdür.
Möhtəşəm uca dağlar,
Elə düzüm-düzümdür.
Mil-Muğan sehrangahım,
Yağlıca gen düzümdür.
Çiçəklər, güllər sözüm,
Torpaq cismim, canımdır.
Sərt qayalar dözümüm,
Dağlar da inamımdır.

Salamməlik beşiyim,
Borçalı, baba yurdum.
Zirvələr ev-eşiyim,
Dağlar yenilməz ordum,
Yurdlar atamdır mənim.
Azərbaycan ağsaçlı,
Böyük anamdır mənim.

***- "Gümüşün gölü», - Borçalıda, Yağlıca düzündə Gümüş xanın adını daşıyan göl adıdır.***

## UZUN ÖMÜR SÜRƏSƏN

Əl çatmayan, ün yetməyən ellərin,
Dolanasan hər dağının başına.
Yol alasan gəzə-gəzə çöllərdən,
Diş göynədən «Gur» bulağın başına.

Göy çəməndə gözəl süfrə sərəsən,
Yarpız qarışıq kəkotu dərəsən,
Babalar tək uzun ömür sürəsən,
Yığışasan pir-ocağın başına.

Atam yenə ocaq çata, köz sala,
Keçmişlərdən söhbət aça, söz sala,
Hər kəlməsi ürəklərdə iz sala,
Toplaşasan nur çırağın başına.

O başdan ağarıb, qızaranda dan,
Dağlardan sıyrılıb qalxanda duman,
Yamaçlara qrov düşdüyü zaman,
İz açasan, bir yaylağın qaşına.

Oyanasan çobanların neyilə,
Yuyunasan gül-çiçəyin şehiylə,
Daranasan, sərin bahar mehiylə,
Bülbül qona bir budağın başına.

Axşam üstü qüzeylərə çən düşə,
Səhər-səhər torpaq üstə nəm düşə,
Sə'dinin də saçlarına dən düşə,
Yol saldıqca hər yığnağın başına.

## ÖTÜRDÜ

Mən gələndə bağça – bağda yaz idi,
Budaqlara bülbül qonub ötürdü.
Hər tərəfdə bahar idi, yaz idi,
Qumrular da dil – dil olub ötürdü.

«Qırx bulaq» qaynayırdı gözündən,
Yarpızların, çiçəklərin üzündən,
Gah axırdı, gah çağlardı özündən,
Çaylar kimi sel – sel olub ötürdü.

Bu yerlərin hər qarışı adladı,
Vaxt – vədə də tez ötüşüb adladı.
Günlər san ki, yelqanadlı atladı,
Aylarımız il – il olub ötürdü.

Dolaşırdım çəmənzarı azadi,
Heyf, vaxtım daralmışdı, az idi.
Könül açan bir sədəfli saz idi,
Səhər – axşam, tel – tel olub ötürdü.

Hər novbahar şair bura gələndə,
Havalanır, bu növrağı görəndə.
El – obaya nəğmə qoşur gedəndə,
Görüşləri el – el olub ötürdü.

## ELLƏR - ELLƏR

Gölsüz qalmış sonalar tək,
Duruxubdu, ellər – ellər.
Pərən düşmüş durnalar tək,
Vurnuxubdu, ellər – ellər.

Hara gedir belə karvan,
Qan ağlayır qoca sarvan,
Yalvarır ki, sizə qurban…
Doluxubdu, ellər – ellər.

Köksün ötürüb dərinnən,
Ayrılaraq bir-birinnən,
Oynayıbdı, yurd yerinnən,
Qalxıbdı, ellər – ellər.

Mərd babanın, mərd oğulu,
Poladdan da sərt oğulu,
Qocaldıbdı dərd oğulu,
Karıxıbdı, ellər – ellər.

Qisməti belə yozanı,
Hər dərdə ağı yazanı,
Deməyin ki, el ozanı,
Qoruxubdu, ellər – ellər.

Ah!.. Nə deyim bu dövrana,
Qarışıbdı, tam zamana,
Sə'di sənsiz yana-yana,
Darıxıbdı, ellər – ellər.

05.11.1990

## YURD YİYƏSİ BİRİ MƏNƏM

Yurd yiyəsi biri mənəm,
Biri sənsən, biri odur.
Sarı simdə ziləm, bəməm,
Yurd yerləri irəli dur,
Gönlümü al, gəl, ovundur.

Yurd yiyəsi biri mənəm,
Könlüm atəş, bir də oddur.
Gözdən axan yaşam, nəməm,
Ocaq yeri irəli dur,
Gönlümü al, gəl, ovundur.

Yurd yiyəsi biri mənəm,
Ey yatmışlar, ayağa dur!
Bu yerlərdə kədər-qəməm,
Ana torpaq irəli dur,
Gönlümü al, gəl, ovundur.

## GÜMAN GƏLMİR BİR DƏ DAHA

Biz getsək də, qalasıdır…
«Ballı qaya», o «Böyük daş».
Bizi yola salasıdır,
«Buan», «O toy», bir də «O qaş».

Bu «Sal ləpik», o «Çopur daş»,
Bu «Mamırlı», o «Şumal Daş»,
Uşaqlıqdan olmuş mənə,
Həm həyan, həm sirdaş…

Bu könlümdə həsrət, təlaş,
Nə cavanam, nə də, o yaş.
Bu cığırlar olmuş mənə,
Həm  həmdəm, həm yoldaş…

Vaxt ötüşür, yavaş-yavaş,
Ayrılsam da, gözümdə yaş.
Yaraşığım olmuş mənə,
Güllər bacım, dağlar qardaş.
Dönəcəyəm bir gün yenə,
Əziz doğma yurd yerinə
Sən yolumu gözlə, qardaş!…

## HARAY DAĞLAR

Həsrət yükümü götürüb
Dərdli köksümü ötürüb
Özümü sənə yetirib,
Mən salmışam, haray dağlar!

Səsim düşüb dərələrə,
Göz gəzdirib zirvələrə,
Əl uzadıb mən göylərə,
Haray dağlar, haray dağlar!

Ayağım yerdən üzülməz,
Vətən dərdi heç dözülməz,
Sənsiz bir də üzüm gülməz,
Haray dağlar, haray dağlar!

Saçlarım ağlı qaralı,
Ürəyim sənsiz yaralı.

Düşmüşəm səndən aralı,
Haray dağlar, haray dağlar!

Ayaq gedir, ürək qalır,
Məni haldan-hala salır.
Cismi-canım odda yanır,
Haray dağlar, haray dağlar!

## TAPŞIRIRAM SƏNƏ DAĞLAR

Müqəddəs Ocaq yerini,
Uluların qəbirini,
Bu əmanət yurd yerini
Tapşırıram, sənə dağlar!

Su içdiyim bulaqları,
O səfalı yaylaqları,
Zirvəndəki «Əyriqarı»
Tapşırıram, sənə dağlar!

Düzlərində taləzarı,
Ətəyində güllüzarı,
Yamacında çəmənzarı,
Tapşırıram, sənə dağlar!

Mən Sə'diyəm, ümidimi,
Bağlayıram sənə dağlar.
Müqəddəs Baba yurdumu,
Tapşırıram, sənə dağlar!
Sənə dağlar, sənə dağlar.

## HANI AĞBİRÇƏK NƏNƏLƏR

Əzizinəm dolan yollar,
Hey boşalıb, dolan yollar,
Gəlib gedənin çox olub,
Dağ boyunca dolan yollar.

Bu yollardan keçən hanı?
Çeşmədən su içən hanı?
Necə olub nər babalar,
Yurd yerini biçən hanı?

Qatar dağlar öz yerində,
Dərə, təpə, düz yerində.
Görünməyir yurd salanlar,
Alaq bitib iz yerində.

Külək əsir meh yerinə,
Qrov düşüb şeh yerinə,
Bircə əlçin bulud gördüm,
Çökübdür quzeh yerinə.

Baltalı, dəhrəli ellər,
Çanaxlı, nəhrəli ellər,
Hanı ağbirçək nənələr?
Köçübdür cəhrəli ellər…

## HARAYA ELLƏR

Nə yurdlar görünür, nə bir adam var,
Köçübdür görəsən, haraya ellər?..
Səsləsəm qoynundan, a dərdli dağlar!
Eşidib gələrmi haraya ellər?..

Gəlmişəm qoynunda bir hay salmağa,
Sinələr dağlayan bir vay salmağa,
Dil deyib hər yana haray salmağa,
Bəlkə də gəldilər haraya ellər!..

Sönmüş ocaqların soyuq külüyəm,
Kaman tək qəddimdən iki büklüyəm.
Duzdaşından ağır qəmlə yüklüyəm,
Daşıyım çiynimdə haraya, ellər?!..

Yaman kövrəlmişəm, yenə qəmliyəm,
Vüsal həsrətliyəm, hicran dəmliyəm.
Sə'diyəm, a dağlar!… Mən dərd əhliyəm,
De, köçüb qoynundan haraya, ellər?..

1993

## AXTARIRAM

Ocaq qırağında, əlimdə çubuq,
Soyuq kül altında köz axtarıram.
Bu yerdə hönkürüb ağlamaq üçün
Bir cüt də əlavə göz axtarıram.

Yenə də istərəm o xoş çağları,
Şənliyi, kefləri, toy – büsatları.
Könlümə təsəlli o qocaları,
Bir də nəsihətli söz axtarıram.

Müqəddəs sandığım ocaq yerində,
Bostanın, xırmanın mən hər birində,
Babamın yurdunun həndəvərində
Bir tanış nişanə, iz axtarıram.

Üstümə qəm – kədər dumanı çöküb,
Gəzirəm hər yanı elə ah çəkib,
Babamın ruhundan xəcalət çəkib,
Bir gecə qalmağa üz axtarıram.

Dayanan dağlar da lal – dinməz baxır,
Dağ çayı sakitcə, qıvrılıb axır.
Lalənin qəmzəsi yandırıb yaxır,
Könlünü almağa söz axtarıram.

Kökündən ayrılmış, qopmuş qayayam,
Yerindən oynamış coşqun bir çayam,
Sə'diyəm, naləyəm, harayam, hayam,
Sakitcə bir kuşə, düz axtarıram.

12.06.2000

## VƏTƏNİN QUCAĞINDA

Çəməndə gülüm qaldı,
Süsən-sünbülüm qaldı.
Sübh çağı, o başdan,
Ötən bülbülüm qaldı
Vətənin qucağında.

Dağlarda dözüm qaldı,
Bağlarda üzüm qaldı,
Qızınıb isinməyə,
Ocağım, közüm qaldı…
Vətənin qucağında.

Cığırım, izim qaldı,
Yamacım, düzüm qaldı.
Gəzdiyimiz oylaqlar,
Yan-yana, düzüm  qaldı…
Vətənin qucağında.

Sevincli günüm qaldı,
Ah çəkdim, ünüm qaldı.
Eşq odunda Kərəm tək,
Yanmışdım, külüm qaldı…
Vətənin qucağında.

Qəbirim, daşım qaldı,
Könül sirdaşım qaldı.
Güllərin ləçəyində,
Şeh tək göz yaşım qaldı…
Vətənin qucağında.

Bu həsrətə dözüm mən,
Gedim gərək özüm, mən.
Göz yaşımla dağları,

Yuyub gedim özümnən,
Vətənin qucağında.

## QƏDİROĞLU NƏ GƏZİRSƏN?

Viran qalmış yurd yerində,
Qədiroğlu, nə gəzirsən?
Dolaşaraq dörd yanında,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm köçüb ellər,
Yurd boşalıb, köçüb ellər.
Üzü bəri baxan dağlar,
De, haraya köçüb ellər?

Bu elləri ana-ana,
Ürəyindən yana-yana.
Varlığını dana-dana,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm gəzən mənəm,
Belə dərdə dözən mənəm.
Bağrım başı yaralıdı,
Ürəyini üzən mənəm.

Saçlarını yola, yola,
Tənha çinar baxan yola
Sən də baxıb dola-dola,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm doldu gəl,
Boşaldı gəl, doldu gəl.
Yollar haman yollardı,
Könlüm viran oldu gəl.

Keçən günlər bir də gəlməz,
Bəxt qarasa üzə gülməz.

Bu hicrana ürək dözməz,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm dönməz geri,
Axar su dönməz geri.
Ömür də bivəfadır,
Gedərsə dönməz geri.

Ocaqlıqda köz axtaran,
Dağ döşündə düz axtaran,
Bir təsəlli söz axtaran,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm közüm yox,
Atəşim yox, közüm yox.
Qaralmış bir ocağam,
Alışmağa közüm yox.

Köç eyləyən el içində,
Dizə çıxan sel içində,
O, qaralmış kül içində,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm, elə mən,
Düşdüm eldən-elə mən.
Qan ağlayır gözlərim,
Kövrəlmişəm elə mən.

Cığırlarda dolaşaraq,
Dərə keçib, dağ aşaraq,
Öz-özünə danışaraq,
Qədiroğlu, nə gəzirsən?

Əzizinəm, sözüm var,
Söhbətim var, sözüm var.
Bir həmdəm, dost gəzirəm,
Deyiləsi sözüm var…

1993

## BU GÖRÜŞƏ DÖZ ÜRƏYİM

*(Ruhiyyə xanım yurd yerinin, bağçaların şəklini çəkib mənə gətirmişdi)*

Bu boş qalmış yurd yerində,
Qanqal bitib gül yerinə.
Sübh tezdən bayquş ötür,
Bir şeyda bülbül yerinə.

O, illərdən illər ötüb,
Cığır itib, izlər itib,
Dolaş – dolan alaq bitib,
Süsənlə – sünbül yerinə.

Kirpiyimdən yaş süzülür,
Yanağım üstə düzülür,
Qəlbimin başı üzülür,
Nalə çəkən dil yerinə.

Bu görüşə döz ürəyim,
Öz içini üz, ürəyim.
Sinəm üstə köz ürəyim,
Sən yan, qaral, kül yerinə.

## AYRI

Ey  könül, dərdini bilən oldumu?
Nələr çəkməyibsən elindən ayrı.
Necə yaşayıbsan, soran oldumu?
Görpə bülbül kimi gülündən ayrı.

Deyin dillənərmi kamanım, sazım?
Aləmi yandırar qəmli avazım,
Ələ qələm alıb, mən necə yazım?

Vətənimdən ayrı, elimdən ayrı.

Min şirin nəğmə də eynimi açmaz,
Boy verən qönçə də xəzandan qaçmaz.
Ətirli güllər də ətrini saçmaz,
Yaşıl çəmənimdən, çölümdən ayrı.

Sönməsin yurdumun ocağı, közü,
Qoy batıb qalmasın çeşmənin gözü,
Bir Ana kəlməsi, bir Vətən sözü,
Düşməsin heç zaman dilimdən ayrı.

Güllər al-əlvandır, neçə cür rəngdə,
Əbədi deyildir gül də, çiçək də.
Sədi, çox arzun var  Nə qədər arzu var vuran ürəkdə…
Düşməsin qələmim əlimdən ayrı.

## DƏRDİM ÇOXALIB, ÇOXALIB

Bu yurdlarda at oynadan,
Elə çoxalıb, çoxalıb.
Mənfur insan, alçaq adam,
Elə çoxalıb, çoxalıb.

Yoxdur bu yurdun adamı,
Nə sarayı, nə bir damı,
Bu görüş üzür adamı,
Qəmim çoxalıb, çoxalıb.

Yol üstündə daş qaralır,
Ocaq yeri boş qaralır,
Axşam düşür, qaş qaralır,
Qayğım çoxalıb, çoxalıb.

Yurdda qalan tək ağaçlar,

Çox görüb ağrı, acılar,
Yığışın qardaş, bacılar,
Dərdim çoxalıb, çoxalıb.
Hanı bu yurdun yiyəsi?..
Tə'rif deyib kim öyəsi.
Sə'diyə el nə deyəsi…
Könlüm yuxalıb, yuxalıb.
2004

## SƏN ALLAH SALMAYNAN YADA DAĞLARI

*(Dostum və eloğlum ŞAHBAZ ŞAMIOĞLUNA)*

Ay el oğlu… könlüm pərişan olur,
Sən Allah, salmaynan yada dağları.
Qəmə hədəf olur, ya nişan olur,
Tutmasın duman tək qada dağları,
Sən Allah, salmaynan yada dağları.

Gözlərim önündə Qır dağı, Ləlvər,
Şamdüyə, Palıdlı, bir də Şindilər,
Darbaz dağı oxunmamış bir əsər
Deyəsən veririk bada dağları,
Sən Allah, salmaynan yada dağları.

Xəyallara dönmüş gül oylaqları,
Kimsəsiz yurdları o, yaylaqları,
Çəməndə çiçəyi, quzeydə qarı…
Qoyub mən gəlmişəm yada dağları,
Sən Allah, salmaynan yada dağları.

O, soyuq bulaqlı, o, buz bulaqlı,
Ətəyi yemlikli, quzuqulaqlı
Yamacı çiçəkli, lalə çiraqlı

Hər bahar salardı oda dağları…
Sən Allah, salmaynan yada dağları.

Könlümdə hıçqırıq, min həsrət yatır,
Şirin röyalardan məni oyadır.
Tüstüsüz, alovsuz tonqalmı çatır?
Çulğayıb kədər, qəm, qada dağları…
Sən Allah, salmaynan yada dağları.

Sədiyəm, qəm - qüssə başımdan aşır,
Dilim söz tutmayır, ağılım çaşır
Gözümün qan yaşı sellənir, daşır,
Ay Şahbaz! Çağıraq dada dağları,
Bu dəmdə salmaynan yada dağları.

## BAXIRAM

«Astanpaşa bulağının» başınnan,
Üzü bəri o dağlara baxıram.
«Çeyilliyin» «Sərt xram»ın qaşınnan,
Gözü dolu bulaqlara baxıram.

Kəkliklərin xına yaxan daşınnan,
Meylim uçdu yuva quran döşünnən,
Qartal kimi «Ballı qaya» başınnan,
Qıy çəkərək uzaqlara baxıram.

Göz gəzdirdim Karvansara yolunnan,
«Seldağlannan», «Kömürlünün» qoynunnan,
«Sınıq kilsə», Qır dağının boynunnan,
Əl çatmayan yaylaqlara baxıram.

«El yolu»nnan karvan - karvan köç gəlir,
Saf havadan ürəklərə güc gəlir,
Şair Sədi bu yerlərə gec gəlir,

El yurd salan oylaqlara baxıram.

## UÇAYDIM VƏTƏNƏ SARI

Ana görüb balasını,
Qollarını açan kimi.
Bala görüb anasını,
Qucağına qaçan kimi…
Qaçaydım, Vətənə sarı.

İstəyimə tuş olaydım,
Pərvaz edən quş olaydım.
Öz yerimdən qanad açıb,
Durnalara qoşulaydım,
Uçaydım, Vətənə sarı.

Səhər günəş çıxan kimi,
Güllər günə baxan kimi,
Üz çevirib mən günəşə
Açan günəbaxan kimi,
Açaydım, Vətənə sarı…

## YAZACAM MƏN

Nə qədər ki, dilim tutur,
Vətəndən söz salacam mən.
Nə qədər ki, əlim tutur,
Qələm alıb, yazacam mən.

Soruşmayın haralıyam?
Ürəyimdən yaralıyam.
Ellərimdən aralıyam,
Ondan nələr yazacam mən…

Durnalar tək qərib-qərib,

Hər il bura uçub, gəlib.

Doğma yurdu  bir də görüb,
Ondan nələr yazacam mən…

Qaçqınların göz yaşıyam,
Köçkünlərin sirrdaşıyam.
Mən sevgimə başdaşıyam,
Ondan nələr yazacam mən…

Bir körpənin harayıyam,
Mən bir elin of, ahıyam.
Söz-sənətlər sərrafıyam,
Hələ nələr yazacam mən.

Kökləmişəm saz üstündə,
Bir bayatı, söz üstündə,
Bu torpağa diz üstündə
Çöküb, nələr yazacam mən.

Ömür bivəfa çıxmasa,
Tale mənə gəc baxmasa,
Fələk məni tez yıxmasa,
Nələr, nələr yazacam mən…

## BAŞKEÇIDDƏDI

Ay Vətən axtaran, ay yurd axtaran,
Yurdumuz – yuvamız Başkeçiddədi.
Ay oba axtaran, ay el axtaran,
Elimiz – obamız Başkeçiddədi.

Yayda dincəlməyə yaylaq axtaran,
Soyuq su içməyə bulaq axtaran,
Çəmənlik axtaran, oylaq axtaran...

"Sərxan oylağı"mız Başkeçiddədi.

Havası ətirli, səması təmiz,
Hər dağı-dərəsi bizlərə əziz.
Arzu-istəyimiz coşqun bir dəniz,
Fikir-xəyalımız Başkeçiddədi.

Laləli düzləri ğörmək istəsən,
Ətirli güllərdən dərmək istəsən,
A dostum, Vətəni görmək istəsən,
Qayıt, yurd-yuvamız Başkeçiddədi...

25.10.2010

## DAĞLAR

Neçə aşıqların, neçə şairin,
Keçibdir qoynunda xoş anı, dağlar.
Neçə igidlərin, neçə ərənin,
Olub öz zamanı, dövranı, dağlar.

Gələnin könlümü pərvaz eylərsən,
Görənin ömrümü sən yaz eylərsən,
Nazlı sənəm kimi gah naz eyləsən,
Açaraq üzündən dumanı, dağlar.

Qoynunda bəslərsən, gülü-çiçəyi,
Nazlı mələkləri, gözəl, göyçəyi,
Ağsaqqal babanı, sən ağbirçəyi,
Qoruyub, saxlarsan hər anı, dağlar.

Əzizdir torpağı, daşı Vətənin,
Bəxtəvər, qoynunda ömrü ötənin.
Belə tez ötüşən, vaxtın-vədənin,
Elə bil üzülüb amanı, dağlar.

Çöbübdür üstümə, ellərin qəmi,
Gedirəm, yetişib, ayrılıq dəmi.

Bir də görəcəmmi, bilmirəm, səni,
Gəlməyir Sə'dinin gumanı, dağlar.

## KÖVRƏLDİB AĞLADIR MƏNİ

Borçalıda yurdum qaldı,
Göynədir, ağladır məni.
Ocağım – odum qaldı,
Yandırır, ağladır məni.

Hanı, o xoş anlar hanı?
Yaxılıb yananlar hanı?
Yad edib ananlar hanı?
Andırır, ağladır məni.

Dözmək olmur el dərdinə,
Çəkməyənin nə dərdinə,
Calaq etdim öz dərdimə,
Sındırır, ağladır məni.

Dözmədilər, yana-yana,
Köçdü Ata, köçdü Ana.
Qayıtdıqca mən o ana,
Yetim tək ağladır məni.

Oğul – qızmız igid, şəhid,
Hər dağ, şahid, hər daş, şahid,
Neçə körpə, qoca şəhid,
Sızladır, ağladır məni.

Hanı Şuşa? Hanı Vətən?
Çoxalıbdı  saçlarım dən.
Göyçə dərdi, dərdlərə tən,
Kövrədir, ağladır məni.

Sə'diyəm, hey əldə qələm,

Dildə ağı, dildə ələm,
Qəm – kədərə bələm – bələm,
Hıçqırdır, ağladır məni.

## QİSMƏT OLSA

Qismətdirmi, görən mənə elə gün,
Əl uzadıb zirvələrə salam ün.
Güllər dərib bir həsrətli gün üçün,
Ətirindən bihuş olub yatım mən,
Bu həsrəti gönülümdən atım mən.

Qismətdirmi, yamaçlarda dikəlib,
Div gövdəli qayalara tən gəlib,
Könül açan nəğmələr də yüksəlib,
Gül – çiçəyi ətirimə qatım mən,
Çəmənlərin şehlərinə batım, mən.

Qismətdirmi, dərə keçib dağ aşam,
Yaylaqları qarış – qarış dolaşam.
Çeşmələrin saf suyuna qarışam.

Zirvələrdən o, aləmə baxım, mən,
Dərələrdən qovrularaq axım, mən.

Qismət olsa o, yerlərə gələndə,
Yemlik otu, quzqulaqlar dərəndə,
Yaylığımı göy otlaqa sərəndə,
Çəmənlikdə çiçəklənib bitim mən,
Gül-çiçəyin arasında itim, mən

## GÖRƏYDİM

El-el gəzib, oba-oba dolaşıb,
Oğullarda düzilqarı görəydim.

Dərə keçib, təpə ötüb, dağ aşıb,
Zirvədəki «Əyriqarı» görəydim.

Bir gəzəydim Şindi dağı yorlunca,
Başkeçidi «Sarf dərə» boyunca,
Su içəydim çeşmələrdən doyunca,
O nüydəki bulaqları görəydim.

Dolanaydım «Qara qaya» başına,
Dırmaşaydım «Batdaxlı»nın qaşına,
Bir qalxaydım Şamdüyənin döşünə,
«Sərxan» yurdu, oylaqları görəydim.

«Quru düz»ü, «Şiş təpə»ni çiçəkli,
Qır dağını gül-çiçəklə bəzəkli,
Bənövşəli, lalə, nərgiz ətəkli,
Palıdlıda bağça-barı görəydim,

Köçüm qalxa o Darbazın dağından,
«İmamalı ölən yer»in sağından,
Qızılhacılı, Karvansara dağından,
Dar keçidli yaylaqları görəydim.

Sə'di deyir: - eldə qalan dostları,
Qarşılayıb, yola salan dostları,
Gözü yolda, fikrə dalan dostları,
Öz yurdunda vəfadarı görəydim.

07.07.2007

## O XOŞ ÇAĞLARIMIN SORAĞINDAYAM

Yenə həvəsliyəm, yenə çoşğunam,
Ulu babaların oylağındayam.
Dəliqanlı kimi yenə çılğınam,
Ana təbiətin qucağındayam.

İlhamım çağladı bir bulaq kimi,
Doldum xatirəylə bir varaq kimi,
Gəzib dolanıram bir qonaq kimi,
Şəlaləli çayın qırağındayam.

Xəyallarım məni hara aparır…
Ayağımı üzüb yerdən qoparır,
Gözlərim hər yanı gəzir, axtarır…
Mərd, igid atalar yaylağındayam.

Getməyib ağzımdan qaymaq, bal dadı,
Bir – bir yad edirəm doğmanı, yadı,
Gördüyüm kefləri, toyu – busatı…
O xoş çağlarımın sorağındayam.

Dilimdə, sözümdə öz yeri olan,
Ruhumun müqəddəs bir piri olan,
Sədinin şerində geniş yer alan,
Müqəddəs Babamın ocağındayam.

## AY DƏDƏM OĞLU

Bu yerlərin qara daşı göyərməz,
Göyərməz – göyərməz, ay dədəm oğlu!
Bu yerlərin qaya-daşı göyərməz,
Lap çiyninə götür, daşı, göyərməz,
Göyərməz – göyərməz, ay dədəm oğlu!

Yurd salan bu yerdə daş qoyub, getdi,
Qoyduğu daş üstə baş qoyub, getdi.
Çoxları yurdunu boş qoyub, getdi,
Bu yerlərin daha daşı göyərməz,
Göyərməz – göyərməz, ay dədəm oğlu!

Dağların zirvəsi, qaşı çən çəkib,
Torpağı islanıb, daşı nəm çəkib,
Qayası kövrəlib, başı qəm çəkib,
Bu yerlərin daha daşı göyərməz,
Göyərməz – göyərməz, ay dədəm oğlu!

Yollar çala – çuxur, cığır – cığırdı,
Boş yurdlar görəndə məni çağırdı…
Baxdım, daş  üstündə bitən mamırdı,
Əl vurmasan qaya – daşı göyərməz,
Göyərməz – göyərməz, ay dədəm oğlu!

## ATALAR VERMƏMİŞ YADA SİRRİNİ

Ürəyi, vicdanı təmiz atalar,
Halal süfrə açmış, yaxşı dost üçün.
Namuslu qeyrətli, əziz atalar,
Canlarından keçmiş, yaxşı dost üçün.

Bilmişlər düşmənin, dostun yerini,
Çəkmişlər bir elin dərdi-sərini,
Atalar verməmiş yada sirrini,
Dost-sirdaşa dönmüş, yaxşı dost üçün.

Baba yurdlarında mayaq olmuşlar,
Hər elə-obaya dayaq durmuşlar,
Dar gündə yatmamış, oyaq qalmışlar,
Arxa çevirməmiş yaxşı dost üçün.

Onunçün söyləmiş, demiş babalar,
«Yaxşı dostlar dar günlərdə sınanar»,
Ağır gündə, yaman gündə atalar,
Dayaq, kömək olmuş yaxşı dost üçün.

## BİLMİRƏM VƏTƏNSİZ HARALI CANIM

***(Kəlbəcər qaçqınlarının diliylə)***

Əzizdir Vətənin torpağı, daşı,
Tükənməz qəm yükü, daşı - ha, daşı.
Quruyan deyildir, gözlərin yaşı,
Yaralı Vətənim, yaralı, canım.

Yağı talan etdi, can-can, a ellər!
Neçə qurban getdi, can cana, ellər!
Fəryadın yayıldı, cahana ellər,
Düşübdür Vətəndən aralı, canım.

Söndü, ocaqların gözü də söndü,
Söndü, işıldayan közü də söndü,
Yanan çırağımın özü də söndü,
Ocaq tək Vətənsiz, qaralı, canım.

Gedirik Allaha pənah, gedirik,
Gedirik, bəlkə də günah, gedirik.
Nə bir qul gedirik, nə şah gedirik,
Qürbətdə Vətənsiz saralı canım.

Adıma hər yerdə qaçqın dedilər,
Didərgin dedilər, köçkün dedilər,
Yurdu, yuvaları itkin dedilər,
Bilmirəm, Vətənsiz haralı canım?

## TƏNHA QOCALARIN HAQLI GİLEYİ

Qoca bir ananın öpdüm əlindən,
Saçımı oxşayan əli titrədi.
Bir söz qopub gəldi, kövrək dilindən,

«Ağ baxtlı olasan, oğlum» – söylədi.

Əl tutub görüşdüm qoca babayla,
Basdı bağrına o, öz atam kimi.
Əhvalın soruşdum qoca babadan,
Danışdı o, dərdli bir adam kimi.

Yollara baxırdı dolmuş gözləri,
Ayağı titrəyib, əli əsirdi.
O həlim, o zəif, kövrək sözləri,
Adamı qılınç tək elə kəsirdi.

«Yaxşıyıq ay oğul, necə olacıq?
Könüldən iraqda, gözdən uzaqda.
Qabaqdan qış gəlir, necə olacıq?
Qalmışıq qarıyla soyuq otaqda.

Oğul çiyni üstən baxmayır geri,
Nə qədər subaydı, gəlib, gedərdi.
Qız da yad oğlunda, gələnmir bəri,
Əvvəl əl tutardı, kömək edərdi.

«Allah Sənə pənah» – deyib durmuşuq,
Bu qışı birtəhər salamat çıxsaq…
Canda təpər olsa, biz gələn bahar,
Qışa tədarük də görrük – çalışsaq».

Bahar ümidiylə yaşayan qoca,
Özünə güvənir, bir də Allaha.
Təəssüf hissi ilə danışan qoca,
Kömək gözləməyir, oğuldan, daha.

## BİRLƏŞİN EY TÜRK OĞLU!

Yağı düşmən əlində,

Yesir qalan dağların,
Yamacı gül bitirməz.
Talan olan bağların,
Ağacı bar gətirməz.

Yurdu talan dağların,
Viran qalan dağların,
Üzü solan dağların,
Quruyar gözyaşları,
Çeşmələri çağlamaz.

Ayrı düşmüş dağların,
Başı qarlı dağların,
Yolu bağlı dağların,
Üstündən yol keçilməz,
Biçənəyi biçilməz.

Birləşin ey Türk oğlu!
Dədə Qorqud – Qor oğlu.
Babək, Nəbi, Koroğlu,
Dağlara dağ çəkənə,
Bağlara dağ çəkənə,
Sizlər də bir dağ çəkin.

Bunu sizlər etməsə,
Bunu bizlər etməsək,
Bunu hamımız etməsək,
Torpaq altda şəhidlər,
Ah! Çəkərək inildər.
Ellərə dağ çəkənə,
Çöllərə dağ çəkənə,
Yığışaq, ey Türk oğlu!
Yığışıb bir dağ çəkək,
Yağı düşmən köksündən,
Dağ üstündən dağ çəkək.

## QARABAĞ VƏTƏNİN AĞRIYAN YERİ

O səssiz – səmirsiz uca dağlara,
Birləşib səs salıb, hay salaq, gərək.
Bir dəfə görməklə, bəs etməz, oğlum!
Orada kök salıb, boy ataq, gərək,
Düşmənə layiqli toy tutaq, gərək.

İstər Laçın olsun, istər Kəlbəcər,
Qubadlı, Zəngilan, Ağdamdan betər,
Füzuli, Cəbrayıl tək qalıb, yetər…
Şuşa qalasını biz alaq, gərək,
Birləşib düşmənə toy tutaq, gərək.

Qarabağ Vətənin ağrıyan yeri,
Ruhların inciyib, ağlayan yeri,
Geriyə yol yoxdur, ağla, yan, yeri…
Əl-ələ, qol-qola biz tutaq gərək,
Düşmənə tutarlı toy tutaq, gərək.

# *BİR ANAM VAR,*
# *BİR VƏTƏN*

## AY NURANİ ANAM, PİRANİ ANAM
***(Əziz anam Şahzadə xanıma)***

Üzündə ay doğub, gözündə günəş,
Neçə layla qopur dodaqlarından.
Ay işıq alıbdır, nuru da günəş,
Sənin o, həyalı yanaqlarından.

Qara saçlarından danmı sökülüb?

İpək tellərin də ağarıb dən – dən.
Yoxsa, danə – danə qarmı tökülüb,
Qayğılar çoxalıb ağaran gündən.

Ocaq hərarəti alıbdır səndən,
İsidir şaxtada, soyuqda bizi.
Laylalar, nağıllar qopub içindən,
Alıb öz qoynuna sazaqda bizi.

Yadların oğluna, oğulum dedin,
Sevdin balan kimi yad qızlarını,
Şirin körpələrə noğulum, dedin,
Analıq öyrətdin el qızlarına.

Sən mənim ömrümün yaraşığısan,
Ay nurani Anam, pirani Anam!
Ata yurdumuzun  nur işığısan,
Sə'dinin Kə'bəsi, Qur'anı Anam!

13.05.2004

## BİR ANAM VAR, BİR VƏTƏN

Adınızı hər çəkəndə qoşa mən,
Sevinirdim, bir Anam var, bir Vətən!
Bülbül kimi hər gələndə cuşa mən,
Söyləyərdim, bir Anam var, bir Vətən!

Oyanardım öz yerimdən yel kimi,
Hayqırardım dərələrdə sel kimi,
Çiçəklənib yamaçlarda gül kimi,
Söyləyərdim, bir Anam var, bir Vətən!

Heç bilməzdim nədir kədər, nədir qəm?

Cənnət idi gözlərimdə bu aləm.
Bu dünyanın sevincini görüb mən,
Söyləyərdim, bir Anam var, bir Vətən!

## ÖZÜNƏ QURBAN OLUM

*(Anam ŞAHZADƏ xanıma)*

Bağçanı bağ eylərsən,
Bostanı tağ eylərsən,
Üzləri ağ eylərsən,
Üzünə qurban olum.

Qanad açıb gələrsən,
Qüssəmizi silərsən,
Güldürərsən, gülərsən,
Gözünə qurban olum.

Körpələr süd qoxulu,
Hürkək bir quş yuxulu,
Laylan şirin, duyğulu
Sözünə qurban olum.

Özün banu, xanımsan,
Damarımda qanımsan,
Mənim ruhum, canımsan,
Özünə qurban olum.

17.06.2003

## AĞLARDI SƏNSİZ

İtibdir dilimin Ana, bal dadı,
Söhbətim, sözüm də ağlardı, Sənsiz.
Demə, qara günüm hələ daldadı,
Nəm çəkən gözüm də ağlardı, Sənsiz.

Nəfəsin üzümə dəyməyəcəkmi?
Bu dərd dağ vüqarım əyməyəcəkmi?
Daha gülər üzüm gülməyəcəkmi?
Sevincim üzümdə ağlardı, Sənsiz.

Ana, saçlarımın sığalı itib,
Ömrümün cövhəri, hilalı itib.
Könlüm qəmlə dolu, məlalı itib,
İnləyiən sazım da ağlardı, Sənsiz.

Ömrün səf düzümü pozulub, Ana!
Göynəyən içim də üzülüb, Ana!
Göz yaşı üzümdə düzülüb, Ana!
Dildə avazım da ağlardı, Sənsiz.

İndi mən boranlı, çiskinli dağam,
Kövrəlmiş çeşməyəm, sızqı bulağam,
Ana, bu dünyada sənsiz qonağam,
Qışım da, yazım da ağlardı, Sənsiz.

25.12.2007

## MƏNİM ÜÇÜN MÜQƏDDƏSDİN, PİR İDİN

Nə varım var, nə yoxum var dünyada,
Boş qalıbdı dünyam Ana, gəl, Sənsiz.
Gözdən düşüb bu işıqlı dünya da,
Xiffət çəkib saralıbdı, gül, Sənsiz.

Mənim üçün müqəddəsdin, pir idin,
Bu dünyamla qoşa idin, bir idin.
İki əziz varlıqlardan biriydin,
Puç olubdu dünyam Ana, bil, Sənsiz.

Qaraltına yalvarırdım görəndə,

Dərdlərimi unudardım, güləndə,
Toy – bayramdı, Sən hər bizə gələndə.
Qara olub günlər, aylar, il Sənsiz.

Deyirəm ki, bircə çiçək solmasın,
Qoy körpələr  boynu bükük qalmasın,
Bu dünyada Sə'di sənsiz olmasın,
Göz ağlayır, ağı deyir dil, Sənsiz.

03.02.2008

## KÖNLÜM LAYLA İSTƏR

Yenə nigaranam, yenə qəmliyəm,
Könlüm həzin nəğmə, bir avaz istər.
Özümdə bilmirəm niyə qəmliyəm?
Könlüm gül-çiçəkli bahar, yaz istər.

Bir bayatı istər, elə bayatı…
Yandırıb lap külə döndərə məni.
Bir oxşama istər, elə oxşama…
Uşaqlıq çağıma göndərə məni.

Ağlamaq da istər, elə ağlamaq,
Quruyb tükənə gözümün yaşı.
Çağlamaq  da istər, elə çağlamaq,
Sızlayıb göynəyə qəlbimin başı.

Könlüm layla istər, şirin, bal kimi,
Qarışa ona da Ana nəfəsi.
Gedəm o günlərə, bir xəyal kimi.
Oyada röyadan Anamın səsi.

Gəl al bu könlümü, hardasan, Ana!?
Körpə tək könülü qırıq kimiyəm.
Təsəlli sözünə möhtacam, Ana!

Yetim tək boyunu buruq kimiyəm…

## QALMAYIB MƏNDƏ DÖZÜM

Qalmayıb məndə dözüm,
Tükənib artıq sözüm.
Ana, başımı qaldır,
Dizinə qoyum üzüm.

Deyəndə son sözümü,
Qıvlaya qoy üzümü.
Qoy dağları görüm mən,
Açıq qoyun gözümü.

## AL MƏNİ QOYNUNA ÜŞÜDÜM, ANA!

***(Əvəzi olunmaz əziz və mehriban Anamın dünyadan köçməsinin bir ili keçdi. Allah rəhmət eyləsn! Ruhun şad olsun, əziz ANAM!!!)***

Köçdü doğmalarım, köçdü dünyadan,
Haraya gedirlər, başalıb, Ana?
Səninlə bir olan bu geniş dünyam,
Sənsiz gözlərimdə boşalıb, Ana!

Sən vardın atasız qalan çağımda,

Hər gün axtarardım, hər gün anardım.
Atamı yurdunda, öz ocağında,
Yaşayırdı, sağdı, elə sanardım.

İndi mən durmuşam, yolayrıcında,
Çaşmışam, bu yollar haraya gedir?
Bir yol sən yaşayan, sənsiz o, evə,
Bir yol da sən yatan məzara gedir…

Evində bir kimsə gözləmir məni,
Getsəm boş otalar məni üşüdər.
Gəlsəm məzarlığa, məzarın məni,
Soyuq baxışıyla məni üşüdər…

Gəlmişəm, oxşayam mən başdaşını,
Ay mənim pənahım, ümidim, Ana!
Atıynan üstündən sinədaşını,
Al məni qoynuna üşüdüm, Ana!..

25.12.2008

## *MƏNİ SEHRLƏYİB BİR ŞEYDA BÜLBÜL*

### BAHAR ÇAĞIDI

Gəzirəm çəməndə bahar çağıdır,
Bənövşə, qəddimi sənə əyirəm.
Fikrimi min həzin nəğmə dağıdır,
Ürəyim, səni də eşitməyirəm.

Necə də al – əlvan bəzənib çöllər,
Gəlir uzaqlardan quşların səsi.
Dağlara aynadır o zümrüd göllər,
Baxdıqca adamın artır həvəsi.

Çiçəklərdən ilmə salıbdır bahar,
Təbiət rəssamdır, naxışı güllər.
Möhtəşəm dağların zirvəsində qar
Çəkibdir, döşündə naxışlı güllər.

Oyanıb təbiət canlılar kimi,
Hər biri dilində öz nəğməsini
Oxuyur, dağ qızı şəlalə kimi,
Gecə sükutunda təranəsini.

Bütün varlığımı unutmuşam, mən,
Qarışıb çiçəyə, qarışıb gülə,
Şirin röyalarda uyumuşam, mən,
Dönmüşəm nəğməli şeyda bülbülə.

## EY ÇƏMƏN, ƏTRİNDƏN DOYA BİLMİRƏM

Baxıram güllərə oxşar gözümü,
Ey çəmən, ətrindən doya bilmirəm.
Məni sehirləyib bir şeyda bülbül,
Vaxtın ötdüyünü duya bilmirəm.

Uzaqdan meşələr əl edir mənə,
Yamaçlar haylayıb “gəl” deyir mənə.
Bənövşələr gülüb “gül” deyir yenə,
Onların hayına uya bilmirəm.

Çeşmələr suyundan süzüb özümə,
Güllərin ətirni qatıb sözümə,
Bir-bir, ilmə-ilmə düzüb gözümə,
Gözümdən uzağa qoya bilmirəm.

Sədiyəm, vurğunam, gözəl-göyçəyə,
Gözləri oxşayan gülə-çiçəyə.
Hər ota - yarpağa, hər bir qönçəyə,
Bu gözəl diyardan doya bilmirəm.

1980

## TƏBİƏTƏ BƏZƏKDİR

Təbiətə bəzəkdir hər çiçək, hər ot,
Hər daşın qayanın gözəlliyi var.
Dolaşıq yolludur, bu gözəl həyat,
Enişi, yoxuşu, düzənliyi var.

Bulaq pıçıltısı, şəlalə səsi,
Bəzən xəyallara aparır bizi.
Bənövşə ətiri, lalə nəfəsi,
Yerindən qoparır ürəyimizi.

Hərdən açılırıq, hərdən doluruq,
Tutulub açılan buludlar kimi.
Hərdən də kövrəlib uşaq oluruq,
Hərdən də coşuruq bulaqlar kimi.

## BAHAR GƏLƏNDƏ, GƏLƏNDƏ

Dağlar yaşıl don geyinər,
Bahar gələndə, gələndə.
Çöllər də əlvan bəzənər,
Bahar gələndə, gələndə.

Qaranquşlar yuva qurar,
Qaraquşlar cəh-cəh vurar,
Durnalar da halay qurar,
Bahar gələndə, gələndə.

Bülbüldə xoş avaz olar,
Gözəldə işvə naz olar,
Xəyallar da pərvaz olar,
Bahar gələndə, gələndə.

Hər telindən naz sallanar,
Qönçə dodaqlar ballanar,
Alma yanaqlar allanar,
Bahar gələndə, gələndə.

Yeni nəğmələr qoşaram,
Bülbül tək mən coşaram,
Çaylar tək aşıb, daşaram
Bahar gələndə, gələndə.

## GEDƏK DAĞLARA, DAĞLARA

Ay ürəyi nigaranım,
Gedək dağlara, dağlara.
Ay sevgilim, ay nigarım,
Gedək dağlara, dağlara.

Gözü yolda qalanım var,
O gözləyir hər yaz-bahar.
Getməsək şivən qoparar,
Gedək dağlara, dağlara.

Sevindirək qocaları,
Qohumları, doğmaları,
Bir güldürək uşaqları,
Gedək dağlara, dağlara.

Sən bir sarı sim üstündə,
Bəmdən  qalx, zil üstünə,
Əlin gəzsin sim üstündə
Gedək dağlara, dağlara.

Gedib ömrün yazı, gülüm!
Gerdə qalıb azı, gülüm!
Köklə sən də sazı, gülüm!
Gedək dağlara, dağlara.

## QÖNÇƏNİ AÇAN GÖRDÜM

Qönçəni açan gördüm,
Ətrini saçan gördüm,
Bülbülləri oxuyan,
Çiçəkləri qoxuyan,
Gör mən haçan gördüm.

Çəmənlər gül ilməli,
Bəzənibdir gülməli.
Üzü gülən dağların,
Çox yeri var görməli
Qartalı uçan gördüm.

Çeşmələr qaynar-qaynar,
Qaynar, gözümdə qaynar.
Çoşsa seli dağların,
Dəryada şıltaq oynar
Qolunu açan gördüm.

Dolaşıram hər yanı,
Görən olur heyranı.
Ovçu insafın olsun,
Vurma bala çeyranı!..
Saydım, neçə can gördüm.

Sınadım dostu, yarı,
Ayrıldıq yarı, yarı.
Görmədim ki, birində
Olsun dosta ilqarı,
Sözündən qaçan gördüm.

Meşələr də alyaşıl,
Yatışıb mışıl-mışıl.
Kol dibində bənövşə
Nərgiz ilə yarışır…
Laləni açan gördüm.

Qayaları lal, dinməz,
Dindirsən də dillənməz.
Çiynində dağ yükü var,
Dərdini kimsə bilməz
Daşları uçan gördüm.

Fələk min oyun qurdu,
İtirdik ata yurdu.
Üz tutmuşuq Vətənə,
Vətənim "Odlar Yurdu"
Can, Azərbaycan gördüm.

## NOVRUZUM, AY NOVRUZUM

Novruzum, ay novruzum!

Gəldi qismətim, ruzum,
İstəyimiz çin olsun,
Yerinə yetsin arzum.

Nəğməli, haylı gəldin,
Xonçalı, paylı gəldin.
Səmənilər əllərdə,
Xonçadan ayrı gəldin.

Çiçəklər açıb yenə,
Ətrini saçıb, yenə.
Qaranquş dəstə-dəstə,
Uçub gəliblər yenə.

Açıbdır tər bənövşə,
Nərgizlər qalxıb döşə.
Nazlı gözəllər kimi,
Tələsirlər görüşə.

Təbiət gəlib cana,
Bəzək vurub hər yana,
Xoş gəlibsən novruzum,
Anam, Azərbaycana.

## DAĞLARI DAŞLARI NECƏ DİNDİRİR

Dinlə bir kəkliyin qəh – qəhəsini,
Quşlar sevincindən gör necə gülür.
Dinləsən bülbülün cəh – cəhəsini,
Görərsən, gülləri necə güldürür.

Qulaq ver çeşmənin zümzüməsinə,
Şəlaləli çayın təranəsinə,
Kamanın, tütəyin, neyin səsinə,
Dağları, daşları necə dindirir.

Oyansa yerindən sərin meh, səhər,
Güllərin üstünə narın şeh səpər.
Batanda al günəş, qovuşanda şər,
Ay da varlığını gecə bildirir.

İnsanlar ucalar düz əməliylə,
Min bir büsat qurar öz əlləriylə,
Hərdən bəd niyyəti, bəd əməliylə,
Heyf, varlığını heçə endirir…

## OXU, BÜLBÜLÜM, OXU

Gözəl bahar çağıdır,
Hər yan cənnət bağıdır,
Səsin qəmlər dağıdır,
Oxu, bülbülüm, oxu!

Nəfəsin dəyən güllər,
Boynunu əyən güllər,
Özünü öyər, güllər
Oxu, bülbülüm, oxu!

Ömür hədər getməsin,
Çən-dumanda itməsin.
Gül yerinə nə alaq,
Nə də qanqal bitməsin,
Oxu, bülbülüm, oxu!

Necə xoşdur bu dövran,
Toydur - büsatdır hər yan,
Ətirli güllər əlvan…
Oxu, bülbülüm, oxu.

Sehirli bir səsin var,
Dinləyirəm hər bahar.
Öz eşqinə vəfadar,
Oxu, bülbülüm, oxu!

İlahi bir səs verib,
Quruca nəfəs verib,
Gör necə həvəs verib,
Oxu, bülbülüm, oxu!

Hələ ki, nazlı yazdı,
Baharın ömrü azdı.
Sə'di bir nəğmə yazdı…
Oxu, bülbülüm, oxu!

## DİL OLMASAYDI

Könüllər sevinib, üzlər gülərdi,
Nə qüssə, nə kədər, nə qəm bilərdi,
İnsan nə ayrılıq, hicran görərdi,
Günləri aparan il olmasaydı.

Nə bülbül gələrdi vəcdə həvəsə,
Nə səhər ötərdi verib səs-səsə,
Gen dünya dönərdi bir dar qəfəsə,
Bağçalı bağlarda gül olmasaydı.

Nə vüsal olardı, nə də ki, həsrət,
Nə sevgi olardı, nə də məhəbbət,
Sə'di, qəlb sirrini açmazdı əlbət,
Könlünə yol tapan dil olmasaydı.

## SİZ GÖZLƏYİN

Gəldim yenə görüşünə,
Ballı qaya, Soyuq bulaq.
O, illərdə nələr olmuş?
Söylə mənə həmdəm olaq.

Görüşünə tək gəlimişəm,
Sənin ilə danışmağa,
Gəlmişəm ki, çeşmə kimi
Durulmağa, saflaşmağa.

Bir qaynayın, bir də daşın,
Qoşa axan ay çeşmələr!
Nolar yenə pıçıldaşın,
Yada düşsün keşmə-keşlər.

Ay «Bülöylü», ay «Şiş qaya»,
Xınalıdır hər bir daşın.
Veribsiniz siz boy-boya,
O, günlərdən bir danışın.

Yaşıl donlu, ay meşələr!
Yenə mənə əl eyləyin.
Kol dibində bənövşələr!
Gələcəyəm, siz gözləyin…

## AĞILMI BAŞIMDAN ALAN ÇİÇƏKLƏR

Hansı birinizi aparım gedim,
Yolumu yamaçdan salan çiçəklər?
Hansı birinizi qoparım gedim,
Çəmənlər qoynunda solan çiçəklər?

O, gül ətirnizdən doya bilmirəm,
Gözlərimdən uzaq qoya bilmirəm,
Açıb dərdlərimi deyə bilmirəm,

Min bir dərdə dərman olan çiçəklər.

Hay salın hayınıza mən də hay verim,
Kəsib ömürümdən sizə qoy verim,
Alın, ürəyimi, sizə pay verim,
Ağılmı başımdan alan çiçəklər.

Baxıram sizlərə vurğunlar kimi,
Çöküb önünüzdə yorğunlar kimi,
Əhdinə vəfalı oğullar kimi,
Etməyin könlümü talan, çiçəklər.

Sizləri gözümdə yaşadacağam,
Şerimdə, sözümdə yaşadacağam,
Ömrüm tək ömrünüzü uzadacağam,
Sədiyə yadigar qalan çiçəklər.

## OTLARIN ŞEHİNƏ QOY BATIM İNDİ

Vətənə əzəldən vurğun könlümə,
Bahar təravəti qoy qatım indi.
Həsrətlər əlində yorğun könlümə,
Bir dağ dəyanəti qoy qatım indi.

Nəğməmin duzunu, şirniyyətini,
Arzu-istəyimi, xoş niyyətimi,
Sevgimi, eşqimi, şe'riyyətimi,
Güllərin ətrinə qoy qatım indi.

Sonalar üzdüyü zümrüd göllərdə,
Bülbülün nəfəsi dəyən güllərdə,
Mənə yer eyləyən yaşıl çöllərdə
Otların şehinə qoy batım indi.

O ki, yaşayırıq bir ömr cəmi,
Neynirik kədəri, neynirik qəmi.
Sədiyəm, a dostum, uyusam məni,
Oyatma, rahatca qoy yatım indi.

## *SALAM GÖNDƏRİRƏM*

### SÖYLƏ

Salam göndərirəm, çiçək dərəndə,
Əllərindən öpən güllərə söylə.
Bahar paltarını yerə sərəndə,
Min bir bəzək vurmuş çöllərə söylə.

Səhər doğan günəş gülsə üzünə,
Qaynayan çeşmələr baxsa gözünə,
Ayna bulaqları tutsan özünə,
Telini darayan yellərə söylə.

O, ulu dağlara, qoca dağlara,
Möhtəşəm dağlara, uca dağlar,
Zirvələri hündür, haça dağlara,
Bir də ki, çağlayan sellərə söylə.

Ocaq daşlarına, ocaq közünə,
Ata öyüdünə, ana sözünə,
Qeyrət çəkənlərin, danış özünə,
Bir də ki, nəğməli dillərə söylə.

Söylə ki, şair də çox nigarandı,
Açılmış lalə tək bağırı qandı.
Unutmaz dağlara verdiyi andı,
Qoynunda bənd tutmuş ellərə söylə.

## BORÇALI QIZI

...Gözlərin yol çəkir, fikri-xəyalın,
Harada dolaşır, Borçalı qızı?
O qönçə dodağın, o ay camalın,
Sənə çox yaraşır, Borçalı qızı.

Zülfünü çəkibsən yanağın üstən,
Tökübsən gərdana, buxaqın üstə,
De niyə dalğınsan, ay boyu bəstə?
Fikrinmi qarışıb Borçalı qızı?

Borçalı dağları yamyaşıl meşə,
Yaşıl kol dibində sən tər bənövşə,
Kiminlə çıxmısan belə görüşə
Xəyalım dağ aşır, Borçalı qızı.

## NECƏ DƏ YARAŞIR QARA XAL, GÖZƏL

Zənn ilə baxıram, gül dodağına,
Necə də yaraşır qaraxal, gözəl!
Aybəniz üzünə, ağ buxağına,
Muncuq tək düzülmüş qaraxal, gözəl!

Qələm qaşlarına Tanrı əl çəkib,
Lalə yanağını al – əlvan çəkib,
Kimlər səni sevib, sonra əl çəkib,
Düşsün bağırına qaraxal, gözəl!

Bir şirinlik vardır, sənin sözündə,
Məsumluq duyulur xumar gözündə,
Gecə ulduzlar tək, səma üzüdə
Sayrışır, üzündə qaraxal, gözəl!

Ağıllı gözlərin bir cüt bənövşə,
Belə şux görəydim səni həmişə.
Həsrət dağlarına gün – işıq düşə,
Düşə, güneylərdə qara xal, gözəl!

Sə'di gül hüsnünə qoşdu nəğmələr,
Dodaqdan – dodağa düşdü nəğmələr,
Sənə layla deyib coşdu nəğmələr,
Alışdı üzündə qaraxal, gözəl!

## AĞRIN ALIM, O,  HAVANI BİR DƏ ÇAL

Ürəyimi lap oynatdın yerindən,
Ağrın alım, o havanı bir də çal.
Qövr eylədi yaralarım  dərindən,
Ağrın alım, o, havanı bir də çal.
Dərdin alım, o, havanı bir də çal.

Göz önündən gəlib keçdi o çağlar,
Sevinc ötsə kədər məni qucaqlar.
Sinəm üstə elə yandı ocaqlar,
Ağrın alım, o, havanı bir də çal.
Dərdin alım, o, havanı bir də çal.

Xəyalımı yaylaqlara apardın,
O, gəzdiyim oylaqlara apardın,
Başı qarlı o, dağlara apardın,
Ağrın alım, o, havanı bir də çal.
Dərdin alım, o, havanı bir də çal.

O, havanın bəmi sənsən, zili mən,
Havalanan nəğməsi sən, dili mən,
Tellər üstə "xalı" sənsən, "gülü" mən,
Ağrın alım, o, havanı bir də çal.
Dərdin alım, o, havanı bir də çal.

Bülbül susub, bulaqlar da olub lal,
Lalələrin bağrına da düşüb xal,
Sə'dinin də saçlarına düşdü çal,
Ağrın alım, o, havanı bir də çal.
Dərdin alım, o, havanı bir də çal.

## ÇAL, AY GÖZƏLİM

Yaman köklənmişəm sarı sim üstə,
Köksüyün üstünə al, ay gözəlim.
Qaldırıb başımı qoy sinən üstə,
«Sarı tel» havası çal, ay gözəlim.

Titrəsin qəlbimin bütün telləri,
Oyatsın yuxudan yatan elləri.
Coşdursun dağlarda coşan selləri,
«Dilqəmi havası» çal, ay gözəlim.

Yandırsın ah-naləm qayanı, daşı,
Qar bassın zirvəni, güneyi, qaşı.
Mən olum Lələ tək Kərəm sirdaşı,
Bir «Yanıq Kərəmi» çal, ay gözəlim.

Çalıynan oğullar cürətə gəlsin,
Ələ silah alıb qeyrətə gəlsin.
Görsün yağı düşmən heyrətə gəlsin,
«Koroğlu cəngisi» çal ay gözəlim.

Köksünə baş qoyan kaş saz olum mən,
Könüllər oxşayan avaz olum mən.
Sənə can sadağa, niyaz olum mən,

Könlümün telində çal, ay gözəlim.

Köklə bir sazını ay şirin dilli,
Dağlardan bir oxu, ay  bizim elli.
Sə'diyəm, deyirəm ay  aşıq Telli,
Yorulmasın əlin çal, ay gözəlim.

# *SEVMƏSƏN MƏNASI NƏDİR, O, ÖMRÜN?*

## QOCA ÇİNAR

Qoca çinar, bahar çağı gələndə,
Görüşərdik sənin ilə hər səhər.
Kölgöyündə dincələrdik, gedəndə…
Ayrılardıq sənin ilə birtəhər.

Meh əsəndə xışıldardı yarpaqlar,
Arxamızca əl edərdi elə bil.
Bir – biriylə pıçıldaşan yarpaqlar,
Danışardı bizim ilə açıb dil.

Payız vaxtı görüşünə gəlmişəm,
Əsir sərin – sərin payız küləyi.
Bir gözəlin görüşünə gəlmişəm,
Əsir kövrək – kövrək bir qız ürəyi.

O mənə sığınıb, mən isə sənə,
Anam kimi əl qoymusan çiynimə.
Sevincimdən ürək sığmır köksümə,
Yarpaqlardan don biçirsən əynimə.

Xatirələr sənin ilə çox olmuş,
Sığışammaz bir kitaba, dəftərə.
Qayğılar da günü-gündün çoxalmış,
Xoş anlarım yada düşür hər dəfə.

Qoca çinar, gələcəyəm hər payız,
Qınamayın bir də geri dönməsəm…
Söz verirəm, bir dost kimi hər payız,
Gələcəyəm, görüşünə, ölməsəm…

## QALIBDIRMI YADINDA

Heç bilmirəm qalıbdırmı yadında,
Biz yanardıq bir sevdanın odunda.
Lal qalardıq "Buz" bulağın yanında.
Dayanardıq, buz bağlardıq qoşa, biz.

O sevdanı kim çox gördü, kim, bizə?
Balta vurdu ömrümüzə, günmüzə.
Yana – yana hey vursaq da dizimizə
Düşənmədik bu hökmü başa biz.

Dolaşardıq gül yaylağı qoşa biz,
Bir vursa da, bir coşsa da qəlbimiz.
Adımızı qəlbimizə yazmadıq,
Niyə yazdıq əlimizlə daşa, biz!?..

Gözlərimdə gül açanmaz çiçəklər,
Qönçələnməz, boy verənməz diləklər
O günləri unudammaz ürəklər,
Lap dolsaqda ayrı-ayrı yaşa, biz.

O yerlərdə nə sən varsan, nə də mən,
Yox könlümə bir təsəlli, bir həmdəm.
Düşünmədən deyirəm ki, hərdən mən,
Ötürmüşük ömrümüzü boşa, biz.

Bu yerlərlərin hər qarışı tanışdı,
O gün üçün, ürək yandı, alışdı.
Görüş yeri, çinarlar da danışdı…

Çox olmuşsuz bu yerlərdə qoşa, siz…

## AL KÖNLÜMÜ, GÜLDÜR MƏNİ DANIŞDIR

Bu dünyada mən də qərib qonağam,
Al könlümü, güldür məni danışdır.
Öz-özünə bir çağlayan bulağam,
Al könlümü, güldür məni danışdır.

Öz kökümdən ayrı düşmüş budağam,
Tüstülənib bir alışan ocağam,
Nə qədər ki, tənha yanan çırağam,
Al könlümü, güldür məni danışdır.

Nə deyirsə ürək mənə düz deyir,
Hər möhnətə, ayrılığa döz deyir,
Nə qədər ki, dilim tutub söz deyir,
Al könlümü, güldür məni danışdır.

Sə'di deyir: - O, illərdən uzağam,
Duman çökmüş başı qarlı bir dağam,
Nə qədər ki, bu dünyada mən sağam,
Al könlümü, güldür məni danışdır.

## SƏNİ GÖRƏNDƏ

Mən elə sevindim səni görəndə,
Sinəmdə ürəyim sanki gül açdı.
O, ala gözləri gülər görəndə,
Qollarım uzanıb sənə əl açdı.

Dolanıb bağçanı, dolanıb bağı,

Bir oylaq eylədik quzeyli dağı.
Görəndə çiçəkli, güllü yaylağı,
Gözlərimdə hər yan çiçək– gül açdı.

Bu mənim ömrümün xoş anlarıydı,
Arzu – istəyimin pak anlarıydı.
Sevincimin ülvi, saf anlarıydı,
Ürəyim sevindi, dilim dil açdı.

## YAŞA SEVGİLİM

Gəl, ataq həsrəti, könlüm həmdəmi,
Vuraq ayrılığı başa, sevgilim.
Könüldən silərək kədəri, qəmi,
Çırpaq qayalara, daşa, sevgilim.

Ana təbiətin bu qucağında,
Gəl, verək baş – başa, çay qırağında.
Dünya bağçasında, dünya bağında,
Ötək bülbül kimi qoşa, sevgilim.

Tək sənə bağlıyam, könül həmdəmim,
Görsəm gül hüsnünü azalar qəmim.
Əgər təbim gəlsə ilhama mənim,
Gələr ürəyim də cuşa, sevgilim.

Sevgi məhəbbətin qədrin bilənlər,
Sevgilim, mələyim, yarım deyənlər,
Qoy ibrət götürsün bizdən sevənlər,
Bir vuraq ömürü başa, sevgilim.

Çəkilsə başımdan bu kədər, bu qəm,
Axtarmaz gözlərim bir özgə həmdəm.
Bir arzu diləklə yaşayaram, mən,
Yaşa, bu dünyada, yaşa, sevgilim.

## İNSAFIN OLSUN

Güldən bəzək vursan, əlbət yaraşmaz,
Bəzəyni az eylə, insafın olsun.
Yarın bağçasına xəlvət, yar aşmaz,
Könlü pərvaz eylə, insafın olsun.

Kim sənin sözündən küsüb inciyər,
Acı söz söyləmə, qəlbim incidər,
Dürdanə dişlərə kim inci deyər?
Qəmzəni az eylə, insafın olsun.

Nə olar, bir gün də məni sal yada,
Eşqin atəşiylə məni sal oda.
Bu yolda gəl məni verməynən bada,
Nazını az eylə, insafın olsun.

Gəl,  mənim könlümü dindir, nə olar,
Alıb ürəyimi güldür, nə olar.
Ləbindən büsə ver, öldür nə olar,
Ömrümü yaz eylə, insafın olsun.

Sən gəzən bağçada qönçə gül açar,
Bülbül gülhüsnünü görüb dil açar,
Sə'di yoxsul kimi sənə əl açar,
Nəzir – niyaz eylə, insafın olsun.

## YAŞAYACAQ BU DÜNYADA

Sənin ilə bir can ololub,
eşq odunda yanan Sə'di,
Qovrulacaq ocaq kimi,
**k**ülə dönüb, sönəcəkdir.
Sənin ilə mehman olub,
öz varlığı sanan Sə'di,
Bir gün gələr, şirin-şirin
xəyallara dönəçəkdir.
Səndən daima söhbət açıb,
gecə-gündüz anan Sə'di,
Bu dünyada qalmayacaq,
bir gün o da köçəcəkdir.

Qiymətimi sağlığımda versən əgər,
Söyləyərəm, yaşamışam bu dünyada.
Çalışmışam, iş görmüşəm zərrə qədər,
Əməllərim yaşadacaq bu dünyada.

## ÖZÜN LEYLİ DEYİLDİN

Hər ağ saçım bir həsrətli günümdür,
Sözlərim də mənim ahım, ünümdür.
Yerdə qalan ancaq yanmış külümdür,
Gəl külümlə oynamaynan belə sən,
Alışanmaz, sevginə də bələsən.

Ürəyimdə ilk eşqimin bütası,
Sızıltısı ərşə - göyə çatası,
Bəxt yatıbsa yatasıdır, yatası.
Oyatmaynan, gəl, təzədən onu sən,
Qalamaynan, sinəm üstə odu sən.
Adın Leyli, özün Leyli deyilsən,
Leyli kimi saf xəyallı deyilsən.

Mən Məcnuna çox meyilli deyilsən,
Ürəyimi gəl oynatma yenidən,
Sevə bilməz, bir də səni təzədən.

## BU TALEYƏ, BU QİSMƏTƏ NƏ DEYİM

Kimə çatar, kimə yetər ünümüz,
Bu taleyə, bu qismətə nə deyim.
Qara gündən oldu betər günümüz,
Bu taleyə, bu qismətə nə deyim.

Xəzan vurdu, bağda soldu gülümüz,
Rüzgar əsdi, göyə uçdu külümüz,
Dərd əlindən talan oldu ömrümüz..
Bu taleyə, bu qismətə nə deyim.

Bir doyunca sevinmədik, gülmədik,
Ömrümüzdə nə xoş gün də görmədik,
Dərdimizi aramızda bölmədik…
Bu taleyə, bu qismətə nə deyim.

Öz içimdə batıb səsim – ünüm də,
Qəmli keçib sənsiz ömrü – günüm də.
Görürəm ki, sən də mənim günümdə,
Bu taleyə, bu qismətə nə deyim.

Bəxt yatmışsa kimsə onu oyatmaz,
Yalvarsaq da gənclik geri qayıtmaz,
Yetim qalmış arzular da boy atmaz,
Bu taleyə, bu qismətə nə deyim.

03.03.2003

## QALIBDIR SƏNSİZ

Bir zaman bu yerdə hey aşıb – daşan,
O günlərim hanı, dərya tək coşan?
Ürəyim atlanıb, gah qucaqlaşan,
Qollarım yanımda qalıbdır, sənsiz.

Üz – üzə gələndə, üzlər gülərdi,
Dodaq tərpənəndə sözlər gülərdi.
Göz – gözə gələndə, gözlənr gülərdi,
Gözlərim kor kimi qalıbdır, sənsiz.

Sənə layla çalıb, nəğmələr deyən,
Təriflər söyləyib, hər yanda öyən,
İndi öz-özünü gəmirib yeyən,
Dodaqlarım bağlı qalıbdır, sənsiz.

Əllərim oxşardı şəvə telləri,
Düzərdi  saçına qönçə gülləri.
Yadıma salıram keçən günləri,
Əllərim qoynumda qalıbdır, sənsiz.

Sənsiz nə gedənim, nə gələnim var,
Elə bil uçulub, dağılıb yollar.
Sədiyəm, üzümə nə gülənim var,
Könlüm intizarda qalıbdır, sənsiz.

## BİLMİRƏM

Ayrı düşdü əzəl  gündən yolumuz,
Yana düşdü, qanadımız, qolumuz.
Sona yetdi tale ilə oynumuz,
Bu oyunlar nəyə gərək, bilmirəm…

Neyləmişdik, Tanrı bizi ayırdı,

Ayrılığı bizə necə qıyırdı.
Sevə - sevə qəlbimizi qırırdı,
Dözsün buna necə ürək, bilmirəm?…

Kimə deyək, kimə yazaq bu dərdi?
Necə edək, hara yozaq bu dərdi?
Qismətimdən, necə pozaq bu dərdi?
Bu dərdləri kimlə bölək, bilmirəm?…

O günləri yada salma, bir daha,
Yada salıb bir də batma günaha,
Birgə durub biz yalvarsaq Allaha,
Eyləyərmi görən kömək, bilmirəm?..

## NƏLƏR ÇƏKİB

Sevgi atəş, yanar ocaq,
Yanğısı var, qucaq-qucaq.
Onu Kərəm bilər,  ancaq,
Alışanda nələr çəkib.

Sevgi atəş, yanar ocaq,
Oda düşən alışacaq,
Onu Məcnun bilər, ancaq,
Səhralarda nələr çəkib.

Sevgi atəş, yanar ocaq,
Alışdıqca yandıracaq.
Onu Fərhad bilər, ancaq,
Külüng əldə nələr çəkib.

Sevgi atəş, yanar ocaq,
Tale verən pay olacaq.
Onu Qərib bilər, ancaq,
Qəriblikdə nələr çəkib.

Sevgi atəş, yanar ocaq,
Sevən könlüm yanan çıraq.
Onu Sədi bilər, ancaq,
Məhəbbətdən nələr çəkib.

## AXTARIRAM HARDASAN

Sənin gözlərini,
        sənin sözlərini,
        sənin izlərini,
Axtarıram, hardasan?

O qara tellərini,
        göyərçin əllərini,
        o qulaç qollarını
Axtarıram, hardasan?

Gözlərindən gülənim,
        ürəyindən dinənim,
        ey halımı bilənim…
Axtarıram, hardasan?

Şəlalələnin səsində,
        şirin təranəsində,
        çinarlar  kölgəsində,
Axtarıram, hardasan?

Çeşmələrin başında,
        gözlərinin yışında,
        dibinin qum-daşında,
Axtarıram, hardasan?

Güllərin arasında,
        xalların qarasında,

gözəllər sırasınla,
Axtarıram, hardasan?

Bahar nəfəsiylə,
bülbülün səsiylə,
gənclik həvəsiylə
Axtarıram, hardasan?

Ətirin, izin qalıb,
xatirən, sözün qalıb,
yollarda gözüm qalıb
Axtarıram, hardasan?

Gözlərindən gülənim,
ürəyindən dinənim,
ey halımı bilənim…
Axtarıram, hardasan?

## ÜRƏYİMİ OYNATDI MƏNİM

Bir Məcnun xəyallı, Leyli timsallı,
Gördü, ürəyimi oynatdı mənim.
Bir qönçə dodaqlı, yanağı xallı,
Gəldi, ürəyimi oynatdı, mənim.

Sandım ki, xəyaldı, xəyal deyildi,
Dedim bir maraldı, maral deyildi,
Düşündüm ki, laldı? – o lal deyildi,
Dindi, ürəyimi oynatdı, mənim.

Dindirdim, elə bil dili bal-şəkər,
Düşən bu sevdaya, ah! Nələr çəkər,
Dedim; - mən yazığı sən götür nökər,
Güldü, ürəyimi oynatdı, mənim.

Üzündəki  xalı alışıb yandı,
Məni od aşiqi pərvanə sandı.
Sədi də bir dəfə yaşını dandı,
Bildi, ürəyimi oynatdı, mənim.

## CAN ALIB GEDİR

O, aycamallım da atıb çarşabı,
Gələndə eşqimdən kam alıb gedir.
Verib ləblərindən abı-şərabı,
Məst edib əlimdən cam alıb gedir.

Ətiri çiçəklər, güllər naxışı,
Gözlərindən yağan bahar yağışı,
Kirpiyi qalxandır, qılınc baxışı,
Sancıb düz sinəmə, qan alıb gedir.

Baxdıqca hüsnünə oluram mayıl,
Şirin röyalardan, ey gülüm, ayıl!
Mən ona qurbanam, o bir əzrayıl,
Gəlib nazı ilə can  alıb gedir.

Sədi, xoşdur yarın işvəsi, nazı,
Hər ömrün baharı, hər ömrün yazı.
Taledən o gözəl, nədən narazı?
Yelkənsiz qayıq tək, yan alıb, gedir.

## GÜL GÖZƏL

Gülüşlərin şəlaləyə bənzəyir,
İncə gözəl, ipək gözəl, gül gözəl.
Yanaqların al laləyə bənzəyir,
Qönçə gözəl, çiçək gözəl, gül gözəl.

Gülüşündə çox mənalar var sənin,
Buta sənin, çiçək sənin, bar sənin.
Bağçalarda hayva sənin, nar sənin,
Bircə gözəl, dilək gözəl, gül gözəl.

Gülüşlərin ürəyimi oynadır,
Damarımda axan qanı qaynadır,
Dəniz gözün bir ləkəsiz aynadır,
Məncə gözəl, göyçək gözəl, gül gözəl.

Əsgilməsin gülüşlərin dodaqdan,
Xumar gözdən, o alışan yanaqdan,
Sə'dini də sehirləyib bayaqdan,
Öncə gözəl, gülək gözəl, gül gözəl.

## YARAŞIR

Mərdəkan bağında bir gözəl gördüm,
Bağça ona, o, bu bağa yaraşır.
Ala gözlərini mən gülər gördüm,
Qoşa xallar al yanağa yaraşır.

Su pərisi, göl sonası – mələkdi,
Dağ laləsi, çöl nərgizi - çiçəkdi.
Huri kimi, banu kimi göyçəkdi,
Qoşa şamaması tağa yaraşır.

Obasından, öz elindən aralı,
Qərib düşən rəngi, ruhu saralı,
Başkeçidin xumar gözlü maralı,
Duruşuyla Şindi dağa yaraşır.

Sadə xəsiyyətli, xoş əhvallıdı,

Qönçə təravətli, lalə hallıdı,
Şirin ləhcəlidi, dili ballıdı,
Gülüşləri gül dodağa yaraşır.

Kim görübdür belə gözəl sənəmi,
Tanrı çəkib qaşlarına qələmi,
Gözəlliyi heyran qoyub aləmi,
Qıvrım tellər ağ buxağa yaraşır.

Mərdəkan, 06.07.2004

## AY QIZ

Ay qız, odlu baxışların
Atəşində yanan mənəm.
Bu atəşi  pərvanə tək
Eşq atəşi sanan mənəm.

İlmə-ilmə naxışların,
Damla-damla yağışların,
O mənalı baxışların,
Lal dilini qanan mənəm.

Mən eşqinin fərağında,
Elə Leyli sorağında,
Səni Məcnun sayağında,
Gecə-gündüz anan mənəm.

## UNUT  MƏNİ, UNUT, SƏN

Sənlə qala bilmərəm,
Könlün ala bilmərəm,

Mən sən ola bilmərəm…
Unut məni, unut, sən,
Unuda bilsən, unut.

Soyumusan daş kimi,
Üzdə donan yaş kimi.
Olmadın sirdaş kimi…
Unut məni, unut, sən,
Unuda bilsən, unut.

Sahilimə bəndəm mən,
Bircə himə bəndəm, mən.
Kövrək simə bəndəm mən,
Unut məni, unut, sən,
Unuda bilsən, unut.

Sənin yerin «başdadı»,
Yolun isə başqadı,
Sevgin elə baş qatır.
Unut məni, unut, sən,
Unuda bilsən, unut.

Xatirəndə qalmayım,
Səni oda salmayım,
Sənə bir dərd olmayım,
Unut məni, unut, sən,
Unuda bilsən, unut.

## SƏN GƏLMƏYƏNDƏ

Səhər də, axşam da, hər gələndə sən,
Toy bayram olurdu mənə gəlişin.
Ürəkdən danışıb, hər güləndə sən,

Sevinc bəxş edərdi mənə gülüşün.
Nigaran könlümün intizarı var,
Artar dərdim kimi sən gəlməyəndə.
O gün mən tutmuram bir yerdə qərar,
Səni görməyəndə, sən gəlməyəndə.

Tez gəl, qoy sənin də görsün gözlərin,
Mən necə batıram qəm dəryasında.
Qayıt, gül üzünü görsün gözlərim,
Sənsiz tək qalmışam qum adasında.

## ÖLLƏM, DƏRDİNDƏN - DƏRDİNDƏN.

Həsrətindən bulud kimi,
Dollam, dərdindən - dərdindən.
Xiffət çəkən çiçək kimi,
Sollam, dərdindən - dərdindən.

Gəl qıyma bu növcavana,
Mən eşqindən bir pərvana,
Ya da Məcnun tək divana,
Ollam, dərdindən - dərdindən.

Sədini gəl çəkmə dara,
Ağ gününü etmə qara.
Etməsən dərdimə çara,
Ölləm, dərdindən - dərdindən.

## SƏNƏ LAYLA ÇALAN MƏNƏM

A insafsız, gülə-gülə,
Meydan oxuma bülbülə,
Sənin kimi bir gözələ,

Ay qız, mehman olan mənəm.

Açıbsan qızılgül kimi,
Ötürsən bir bülbül kimi,
Həsrətindən sünbül kimi,
Saralan mən, solan mənəm.

Yanağına al yaraşır,
Buxağında xal alışır,
Baxışların lal danışır,
Onu elə qanan mənəm.

Gəl çəkim sənin nazını,
Dinləyim xoş avazını,
Kökləyib telli sazımı,
Sənə layla çalan mənəm.

Ay Sə'dinin gözəl yarı,
E'tibarlı, vəfadarı.
Məni belə süzmə barı,
Sənə heyran olan mənəm.

## SƏNSİZ YAMAN DARIXMIŞAM

Harda qaldın? Ömrüm – günüm!
Sənsiz yaman darıxmışam.
Qara olub mənim günüm…
Sənsiz yaman darıxmışam.

Bu dörd divar sıxır məni,
Qəm qüssələr yıxır məni,
Axırıma çıxır mənim,
Sənsiz yaman darıxmışam.

Darıxmışam sözün üçün,

Mavi səma gözün üçün,
Ay gözəlim! Özün üçün,
Sənsiz yaman darıxmışam.

İnsafa gəl, gəl, barışaq,
Söhbət eylə, gül, danışaq,
Bir od tutub, bir alışaq,
Sənsiz yaman darıxmışam.

Ayrılıqdan indiyə tək,
Xeyir tapan varmı, görək.
Gəl, ay gülüm! Gəl, görüşək!
Sənsiz yaman darıxmışam.

Gəl, Sə'dini sən yad eylə,
Könlümü al, bir şad eylə,
Bu həsrətdən azad eylə,
Sənsiz yaman darıxmışam.

## NAZINLA SƏN MƏNİ ÖLDÜRƏCƏKSƏN

Kim səni ürəkdən sevəcək, gülüm!
Kimə sən özünü sevdirəcəksən?
Bilmirəm… sən kimi sevəcən, gülüm!
Kimə sevdiyini bildirəcəksən?

Bülbülü çoxalar hər qönçə gülün,
Sevməsən mənası nədir, o, ömrün?
Söylə həqiqəti, söylə, ey gülüm!
Kimə son sözünü sən deyəcəksən?

Qara eyləyəcən kimin gününü,
Göyə sovuracan kimin külünü,
Hansı bəxtəvərin alıb könlünü,
Bəxtəvər – bəxtəvər güldürəcəksən?

Sən tuti dillisən, ay xoş avazlım,
Sən hansı ellisən, ay bahar, yazlım?
Kökləyib könlümü, ay telli sazlım,
«Dilqəmi» üstündə dindirəcəksən?

İşvəni, qəmzəni gördüm bu axşam,
Səndəki həvəsi, yananda ağ şam.
Tək onu bilirəm… bilirəm axşam,
Nazınla sən məni öldürəcəksən.

## DƏRDLƏRİMİ BÖLƏN OLDU

Yandım bir eşq atəşində,
Duyuq düşüb bilən oldu.
Tutdular söz atəşinə,
Bağrım qana bələn oldu.

Yolum üstə gül bitəndə,
Əl uzatdı hər yetən də.
Üz çevirib yan ötəndə,
Dərdimdən də ölən oldu.

Çoxdur məni öyənlər də,
Üzümə dost deyənlər də,
Baxıb gözün döyənlər də,
Arxamca da gülən oldu.

Var sinəmdən od dağlayan,
Quyu qazıb, yol bağlayan.
Əhvalıma qan ağlayan,
Göz yaşını, silən oldu.

## SƏNİN MƏHƏBBƏTİN, MƏHƏBBƏT DEYİL

Qövr edir içimdə sönməzdir eşqim,
Əhdi ilqarından dönməzdir eşqim,
Yersiz oyanmazdır, dinməzdir eşqim,
Yersiz alışmaq  da məhəbbət deyil,
Sənin sədaqətin, sədaqət deyil.

Axtarıb çox gəzdim şux afətimi,
Görmədim bir kəsin sədaqətini.
Tapanda alagöz səadətimi,
Dedilər: - röyadı, həqiqət deyil,
Bu sənin gəzdiyin səadət deyil.

Eşqini eşqimə calaq eyləmə,
Gülüstan bağımı alaq eyləmə,
Sə'dinin eşqinə sən lağ eyləmə,
Sözün də sevgin tək həqiqət deyil,
Sənin məhəbbətin, məhəbbət deyil.

## SƏN YAZ EŞQİMİ

Sən bahar eşqimi, sən yaz eşqimi,
Göylərə ucalan pərvaz eşqimi,
Bir ağ vərəq kimi təmiz qəlbinə,
Böyük məhəbbətlə sən yaz eşqimi.

Qoy düşsün dillərə məhəbbətimiz,
Fikrlər, duyğular, amallar təmiz.
Sevgiylə, sevinclə, fərəhlə dolsun
Bir vuran, bir olan ürəklərimiz.

Bu sevgi, məhəbbət, ey vəfadarım,
Əbədi deyildir, bilirsən yarım…
Həyatda ayrılıq, hicran, ölüm var,

Sən yaşa, şən yaşa, gözəl nigarım.

## BAĞLAYA BİLSƏM

Kövrəlib ağlardım, ağlaya bilsəm,
Çeşmə tək çağlardım, çağlaya bilsəm,
Dağlarla əhd-peyman, bağlaya bilsəm,
Daş olub çökərdim, torpağın üstə.

Qızılgüllər kimi sən çiçək açsan,
Behiştlik ətrini aləmə saçsan,
Soyuqdan qorunub, xəzandan qaçsan,
Bülbül tək səkərdım, budağın üstə.

Ürək kövrələndə, gözlər dolanda,
Nitqin qırılanda, siman solanda,
Üstünü duman tək kədər alanda,
Gözyaşı  tökərdim yanağın üstə.

## VƏFASIZ DEMƏ

Harada ki,  məndən söhbət, söz düşsə,
Ah çəkib, sən mənə vəfasız demə.
Qəlbinin başına yanar köz düşsə,
Yanıb - yaxılaraq vəfasız demə.

Bu mənim vəfamdı, o sənin vəfan,
Eşqin nə ölçüsü, meyyarı olmaz.
Bəs sənin özüyün necoldu vəfan?
Ölçsək günahlar tam yarı olmaz.

Qəlbən var - dövlətə vurulanlardan,

Sə’di, sən sədaqət, səfa gözləmə.
Sənin varlığını ucuz tutandan,
Etibar gözləmə, vəfa gözləmə.

## QUCAĞINDA

Lalə yanağında, gül dodağında,
Açıbdır, ay gözəl, gül budağında
Bir qərar tutmayıb, düzülüb gəlib,
Necə qərar tutub gör, qucağında.

Mənə saf duyğulu olan sevgini,
Ağlımı başımdan alan sevgini,
Qatıb çiçəklərə qalan sevgimi,
Məhəbbət çələngi hör, qucağında.

Bahar açan çiçək payız bar verir,
Alma, alma verir, nar da nar verir.
Ay gülüm, payızda sən də bar gətir,
Körpənə yer eylə hər qucağında.

Gözü səndə qalıb bütün cahanın,
Kim həsrətin çəkməz, belə cananın.
Bizə ANA olan Azərbaycanın,
Firavan bir ömr sür qucağında.

Güllər dən-dən olur, solur son bahar,
Dağlar zirvəsində görünəndə qar.
Sədi, bu dünyada o ki, ölüm var,
Öləndə öləsən, yar qucağında.

## APAR, SƏN MƏNİ

Qurbanlıq quzu tək düşüb dalınca

Gedərəm ardınca, apar, sən məni.
İstər Qurbani tək qul bazarında
Adıma qul deyib satarsan məni,
Gedərəm, ardınca aparsan məni.

Yolunun üstündə bir çinar ollam,
Əhdinə vəfalı, vəfadar ollam,
Mən sənə gərəkli elə yar ollam…
Gözünü gəzdirib axtarsan məni,
İnan ki, hər yerdə taparsan məni.

Sə'diyə həvəs ver, sevgi dəmindən,
Ayır bu dünyanın dərdi qəmindən.
Gəl götür, nə olar, hicran əlindən…
Qopar öz dünyamnan, qopar sən məni,
Apar öz dünyana, apar, sən məni.

## MƏNƏ TƏSƏLLİDİR XATİRƏLƏRİN

Sən mənim gözümdə, şər qarışanda,
Batan günəş oldun, doğan ay oldun.
Ulduzlar göylərdə hər sayrışanda,
Gedib ulduzlara sən də tay oldun.

Mənə təsəllidir xatirələrin,
Xatirə gah şirin, gah ağı olur.
Şirinli-acılı hər xatirələr,
Çox vaxtı görürsən, gözdağı olur.

Qayıt, mənim gülüm! Gəl, səhmana sal,
Dağınıq könlümü, eylə bahar, yaz.
Həsrətin qoymayıb məndə elə hal,
Məni şaxta vurub, dondurub ayaz.

## MƏN SƏNİ SEVDİM Kİ…

Mən səni sevdim ki,  səni sevdmi ki…
Qatıb sevincimə öz sevincini,
Mənə dünya boyda sevinc verəsən.
Sevilə - sevilə sən özün qədər,
Məni də özümə sən sevdirəsən.

- Daha sevmədim ki, sevinc yerinə,
Özünlə birlikdə qəm gətirəsən.
Başımdan tökəsən dərdi, kədəri,
Gülümsər gözümə nəm gətirəsən...

Mən səni sevdim ki,  səni sevdmi ki…
Dinib danışasan, deyib-güləsən,
Mənim də kədərli, qəmli çağımda,
Könlümü alasan, sən güldürəsən,
Mənə bu dünyanı sən sevdirəsən.

Daha sevmədim ki, sən gəlişinlə,
Bir batman sən mənə qəm gətirəsən,
Donuq baxışınla, buz gülüşünlə,
Gülümsər gözümə nəm gətirəsən.

Mən səni sevdim ki, səni sevdim ki…
Sən mənə ən yaxın, doğmam tək əziz,
- mehriban, qayğıkeş yoldaş olasan,
Həyatda ən ağır, ən çətin gündə,
Mənə dayaq olub, sirdaş olasan.

Daha sevmədim ki, məni aldadıb,

Güneyli dağıma çən gətirəsən,
Minbir nazın ilə könlümü alıb,
Gülümsər gözümə nəm gətirəsən.

Mən səni sevdim ki, səni sevdim ki…
Gətirib ilhama gözəlliyinlə,
Mənə ruh verəsən, həvəs verəsən.
Süzgün baxışınla, ala gözünlə,
Qəlbimi oxşayan şirin sözünlə,
Sən başdan – ayağa, mənə, özünlə
– Səadət, sədaqət, sevinc verəsən.
Eşqinə köklənmiş könlüm telində
Mizrab kirpiyinlə, sən öz əlinlə,
Eşqin havasında, eşqin dilində,
Sevgi nəğməsini sən dindirəsən.

Daha sevmədim ki, gözəlliyini
Car çəkib aləmlə bir eyləyəsən.
Ədanla yıxaraq könül evimi
Yandırıb, yaxaraq kül eyləyəsən…

Mən çox çalışdım ki, unudam səni,
Unudam bir yolluq mənə verdiyin,
Özünlə, sevginlə bir gətirdiyin
Bu qədər qüssəni, kədəri-qəmi…

Yox! Unuda bilmədim, bir an da səni,
Nədə ki, verdiyin kədəri – qəmi.
Sənin varlığındır, sənin qəmindir,
Bəlkə də, həyatda yaşadan məni…

## *ATALAR DEMİŞ*

### ATALAR DEMİŞ

Bir işarə arif olana bəstir,
O sənin anlayıb  tez başa düşər.
Nadana səhvini desən əbəsdir,
Aqillər səhvini tez başa düşər.

Hələ suyu başdan bulandıran var,
Çox çəkər bu suyun durulmağı da,
Hələ gözü – könlü bulandıran var,
Çətindir saflaşıb, durulmağı da.

Çox su aparacaq hələ bu xəmir,
Urvasız kündələr küt düşəcəkdir.
İşlək deyildirsə paslanar dəmir,
Xənçər də qınında küt düşəcəkdir.

Özünün əlindən bir iş gəlməyən,
Tazıya dovşanı «tut», deyən də var.
Özgə kölgöyündə rahatca yatan,
Arabayla dovşan tutanlar da var.

Daha  haqsızlığa dözə bilməyən,
Buraxıb sənəti daş kəsir indi.
Bir cücə başını kəsə bilməyən,
Nadanlar pambıqla baş kəsir indi.

Qotur bir eşşəyə minə bilməyən,

Özgənin atını minib oynadır.
Ağzına su alıb dinə bilməyən,
İndi dilə gəlib, əl-qol oynadır.

Qonşuya həmişə umudlu qalan,
İnanın, o gecə şamsız qalacaq.
Bir tikə çörəyə umudlu qalan,
Bilin ki, hər gecə şamsız yatacaq.

Əzəldən bu sözü babalar demiş:
- «Özgənin atına minən tez düşər».
Nanikor oğullar, atalar demiş:
- «El-oba gözündən inan tez düşər».

## GƏRƏK OLSUN

Hər papaq qoyana kişi deyilmir,
Kişi qeyrət çəkən, ər gərək olsun.
Namərdlik bir kişi işi deyildir,
Kişi igid kimi nər gərək olsun.

Zərifsən, kövrəksən, ey əziz qadın,
Nənələr, analar çağrılır adın.
Heyf!.. hər gözələ deyilmir qadın,
Qadın öz ərinə yar, gərək olsun.

Xayin dostun üzü ağ ola bilməz,
Hər bir ağartıdan yağ ola bilməz,
Kiçik təpələrdan dağ ola bilməz,
Dağların başında qar gərək olsun.

Ay Sə'di, atalar deyib əzəldən,
Atlas, ipək olmaz sarı xəzəldən.
Bil ki, gəlin çıxmaz arsız gözəldən,

Qızda abır, həya, ar gərək olsun.

## OĞUL ƏFƏL ÇIXSA…

Mərd sözün mərdanə, aşikar söylər,
Namərdin siması saralar, gedər.
Qartal ov ovlayar, ley şikar eylər,
Onun da əlindən sar alar, gedər.

Xoş olur səfası gül yaylaqların,
Suları dərmandır saf bulaqların.
Payızın son ayı uca dağların,
Başını çən-boran, qar alar, gedər.

Doğmadır vətənin hər bir bucağı,
Cənnətdir ananın isti qucağı,
Oğul əfəl çıxsa, ata ocağı,
Vaxtından tez sönər, qaralar, gedər.

Sə'di ümidinu ellərə bağlar,
Vətən eşqi ilə gurlayıb çağlar.
Ellər mərd oğlunu əzizlər, saxlar,
Namərd el içində xar olar, gedər.

## GİZLƏNƏ BİLMƏZSƏN MİN DONA GİRSƏN

O yaşamaq deyil gözü kölgəli,
Hər iti baxışdan diksinəcəksən.
Qorxaqlıq işləyib iliynə kimi,
Dovşan tək hər səsə tez sinəcəksən.

Tutduğun əməldən, gördüyün işdən,
Bir gün də özündən iyrənəcəksən.
Aldansan şöhrətə, bir şirin sözə,
Bir gün də özünü itirəcəksən.

Gizlənə bilməzsən min dona girsən,
Eyibin varsa da görünəcəksən.
Qoyma ki, nəfsin sənə xan olsun,
Yoxsa dalısınca sürünəcəksən.

Odunu söndürmə, özgə odunda
Heç də düşünmə ki, isinəcəksən.
Yersiz söhbət edib, sən yersiz gülsən,
Aləmi başına güldürəcəksən.

Qoruya bilməsən ləyaqətini,
Vədəsiz güllər tək dəriləcəksən.
Çirkaba bulaşmış palazlar kimi,
Ayaqlar altına səriləcəksən.

Qəlbində paxıllıq yoxdursa sənin,
Dostlar arasında seviləcəksən.
Əməlin gül açıb, bar verən zaman,
Sən də fərəhindən sevinəcəksən.

## HEÇ NƏ ƏBƏDİ DEYİL

Həyatda heç nə əbədi deyil,
«Yaranan öləcək»: – demiş babalar.
Dinləyin, bir görün nə deyir, Sə'di,
– Dünyaya qonaq tək gəldiyim kimi,
Bir gün bu dünyadan köçməyim də var.

## HƏYATDA ƏZİZİM…

Həyatda əzizim, sevinc var, qəm var,
Əgər sevinməsən, səni qəm haqlar.
Çalış ki, sevinci əldən buraxma,
Buraxsan yerini kədər, qəm alar.

Sevinc olan yerdə, qəm calaq olar,
Çağlaya-çağlaya bir bulaq olar.
Sevinc dəni səpsən hər bir könülə,
Sevincin gül açar, qəm alaq olar.

Sevincdən eynimiz açılar gül tək,
Dil üstə dil bitər şeyda bülbül tək.
Arzudan, arzular doğar, balalar,
Qızılı saçaqlı sarı sünbül tək.

## İNSAN ÖZ NƏFSİNİ SAXLASIN GƏRƏK

İnsan öz nəfsini saxlasın gərək,
Hər haram tikəyə əl uzatmasın.
İştahnı, tamahnı saxlasın, gərək,
Özgənin payına əl uzatmasın.

Tapdığı nemətə şükr eyləsin,
Kimsənin payın0da gözü qalmasın.
Hər gün namaz qılsın, zikr eyləsin,
Qəlbində pis fikri, sözü qalmasın.

Tanrı tez tanıyır pak olanları,
Onlara bol nemət, bol ruzu verər.
Günah işlətməyən pak olanlara,
Hər zaman yox yerdən ruzu yetirər.

Gözü üstə olar yaxşı kəslərin,
Qoruyar niflərdən, böhtan, qarğışdan.
Haqqın düz yolunu tutan kəsləri,
Qoruyar bəladan, qardan, yağışdan.

## KİM SƏNİ YAD ETSƏ

Oğul-oğul olsa ata varını
Kül etməz əksinə, cah-cəlal eylər.
Ata çörəyini, ana südünü,
Belə övladlara bil, halal eylər.

Ellər yad eyləyər mərd oğulları,
Düşmən əyə bilməz sərt oğulları.
Çox zaman görürük dərd oğulları,
Gahdan danışdırıb, gah da, lal eylər.

Oğul var əl tutur doğmaya, yada,
Dostun dar günündə tez çatar dada.
Elə oğul da var, bu gen dünyada,
Nə yaxşı ad qoyar, nə məlal eylər.

Nankor oğullar başı ucaltmaz,
Qeyrətli oğullar dostunu satmaz.
Sə'di, səni ellər heç vaxt unutmaz,
Kim ki, yad eyləsə, xoş xəyal eylər.

## ŞAİRİN DÖVLƏTİ-VARIDI, ŞEIR.

### ŞEİR

Çeşmə tək içindən süzülüb gələn,
Dilinin ucundan üzülüb gələn,
Bənd-bənd, misra-misra düzülüb gələn,
Şairin dövləti-varıdı, şeir.

Yuxusuz gecənin o bəhrəsidi,
Nigaran ürəyin nəbzi, səsidi.
Könül harayıdı, qəhqəhəsidi,
Şairin bəhrəsi, barıdı, şe'r.

Gələndə yuxudan oyadar səni,
Bəzən öz yerindən oynadar səni.
Gah könlünü alar, ağladar səni,
Şairin övladı, yarıdı, şe'r.

Çox zaman yol tapar daş ürəklərə,
Dönər nəğmələrə, xoş diləklərə,
Bənzəyər ətirli gül-çiçəklərə,
Şairin qönçəsi, xarıdı, şe'r.

## UNUDAMMAZ BU DAĞ MƏNİ, ÇÖL MƏNİ

Bağban idim, neçə ağaç, gül əkdim,
Səhər mehdim, axşamüstü küləkdim,
Gecə gündüz qayğısını mən çəkdim,
Unudammaz bu bağ məni, gül məni.

Bahar çağı dumanlarda itərdim,
Yamaçlarda çiçəklənib bitərdim.
Səhər-axşam qumru kimi ötərdim,
Unudammaz bu dağ məni, çöl məni.

Nəğmələrim əldən-ələ gəzərdi,
Qanadlanıb eldən-elə gəzərdi.
Havalanıb dildən-dilə gəzərdi,
Unudammaz dodaq məni, dil məni.

Bilən bilir Yaradanın quluyam,
Bir ağacın budağıyam, qoluyam
Borçalıyam, Sə'di Qədir oğluyam,
Unudammaz budaq məni, el məni.

## DOST OLMAZ

Hər üzə güləndən sənə dost olmaz,
Dost olmaz, dost olmaz, ay Qədiroğlu!
Hər iki üzlüdən sənə dost olmaz,
Dost olmaz, dost olmaz, ay Qədiroğlu!

Hər dostum deyəndən sənə dost olmaz,
Hər çörək kəsəndən sənə dost olmaz,
Hər şərəfsiz kəsdən sənə dost olmaz,
Dost olmaz, dost olmaz, ay Qədiroğlu!

Zatı qırıqlardan sənə dost olmaz,
Yaddan, yaltaqlardan sənə dost olmaz,
Gədadan, dığadan sənə dost olmaz,
Dost olmaz, dost olmaz, ay Qədiroğlu!

Dost olan kəsldərdə ürək gərəkdir,
Saf arzu, məhəbbət, dilək kərəkdir,

Bir-birinə arxa, kömək  gərəkdir,
Dar gündə dayağın olmayan kəsdən
Dost olmaz, dost olmaz, ay Qədiroğlu!

## YAMAN KEÇDİ, BAHAR-YAZI ÖMRÜMÜN

Ürəyimdə min-bir arzu yaşardı,
İlhamım da çağlayardı, coşardı,
Sevincim də öz həddini aşardı…
Yaman keçdi, bahar-yazı ömrümün.

Vurulardım bir gözələ ürəkdən,
Bəzəyərdim saçlarını çiçəkdən,
Qanad aldı illər əsən küləkdən…
Yaman keçdi, bahar-yazı ömrümün.

Qumruların nəğməsini dinlərdim,
Bu nəğməni eşq nəğməsi bilərdim.
Bülbülləri dindirərdim, dinərdim,
Yaman keçdi, bahar-yazı ömrümün.

Başım yenə qalmaqala düşübdü,
Ağ buxaqda gözüm xala düşübdü,
Görün Sə’di, bir nə hala düşübdü,
Yaman keçdi, bahar-yazı ömrümün.

## SEVİNDİR

Ay adı dillərdə gəzən eloğlu!
Adın uca olsun, eli sevindir.
Varından, pulundan bir az, eloğlu!
Kasıblara əl tut, əli sevindir.

Uzaqsan vətəndən, el səni gözlər,
Sərin çeşmələr də gəl, səni gözlər,
Bağçalarda açan, gül səni gözlər,

Bülbül tək uçub gəl, gülü sevindir.

Sən elə dayaqsan, el sənə dayaq,
Çaldığın havanı dinlədim, bayaq.
Dayandım, yerimdə saxladım ayaq,
Dindir telli sazı, teli sevindir.

Çalış el içində yaxşı ad eylə,
Yaxın dost, tanışı hər gün yad eylə,
Sə'dini bir dindir, könlün şad eylə,
Şirin söhbət eylə, dili sevindir.

## BU QOCALIQ DEYİL, SÖYLƏ BƏS NƏDİR

Fikir dolaşarsa, əqil çaşarsa,
Bu qocalıq deyil, söylə bəs nədir?
Gözlərə tor gəlib, göz qaralarsa,
Bu qocalıq deyil, söylə bəs nədir?

Başın ağararsa, saç tökülərsə,
Ağzında qalmayıb, diş sökülərsə,
Qəddin əyilərsə, bel bükülərsə,
Bu qocalıq deyil, söylə bəs nədir?

Qırış kök salıbsa üz, gözlərində,
Kövrəklik duyulsa hər sözlərində,
Təqət qalmayıbsa heç dizlərində,
Bu qocalıq deyil, söylə bəs nədir?

## İNSAN YAŞA DOLDUQCA

İnsan yaşa dolduqca,
ürəyi kövrək olur.
Hər dinib danışdıqca,
gözləri yaşla, dolur.

Bir kəsin könlünü
əsla qırmaq istəmir,
Hər küskünün qəlbini,
daima almaq istəyir.
Bu kövrəklik haradan,
Gözlər niyə nəmlidir?
Bu şirinlik haradan,
Sözlər niyə qəmlidir?

Öümr keçir, gün keçir,
Elə haylı, haraylı.
Çalış elə gün keçir,
Bir-birindən sayalı.

## GEC DEYİL HƏLƏ

Yatma sən yollarda oyaq ol, oyaq,
Çıxaq sınaqlardan verib əl-ələ.
Sən mənə arxa ol, mən sənə dayaq,
Dönək o illərə, gec deyil hələ.

Qocalırıq dedin, söylədin bayaq,
Cavanlıq çağları düşməzdir ələ.
Mən sənin yolunda olmuşdum mayaq,
Dönək o illərə, gec deyil hələ.

Qapımdan içəri sən bassan ayaq,
Həsrətli günləri gətirim dilə.
O xoş amalları birbəbir sayaq,
Dönək o illərə, gec deyil hələ.

Hayıma sən hay ver, ayıq ol, ayıq,
Yenə ürək açan müjdələr gələ.
Ata ocağına bir basaq ayaq,
Dönək o yerlərə, gec deyil hələ.

Dönək o illərə, gec deyil hələ.

## ÇİÇƏYƏ QARIŞIB

Çiçəyə qarışıb bitəsiyəmmi,
Torpağa kömülüb itəsiyəmmi,
Bahar dumanı tək yoxsa, dağlara,
O, başdan çəkilib gedəsiyəmmi.

Yaxşıdan pisləri seçəsiyəmmi,
Dağ aşıb dəryalar keçəsiyəmmi,
Elə çaşbaşam ki, özüm bilmirəm,
Ömrün gündüzüyəm, gecəsiyəmmi.

## KÖNLÜM

Fikrin gəzir haralarda…
Qəmlərə qərq olan könlüm.
Gəmin batıb dəryalarda?
Sulara qərq olan könlüm.

Çatan olmaz fəryadına,
Yetən olmaz imdadına,
Salan olmaz heç yadına,
Gözdən iraq olan könlüm.

Kimsə səni ovundurmaz,
Dərdlərini unuddurmaz,
Görənlər də can yandırmaz,
Dərdlərə qərq olan könlüm.

## GÖZLƏRİM DOLA-DOLA

Gözlərim dola-dola,
İlləri saldım yola.
Bu əbədi dünyada,
Nə qoydum, nəyim qala.

Gül-çiçəyin içində,
İtirmişəm özümü.
Dağlardan dözüm alıb,
Axtarıram özümü.

Zirvələr qara qalıb,
Qar yağıb, qara qalıb.
Səpilməmiş şum yeri,
Əkilib, qara qalıb.

Yolları duman alıb,
Qar alıb, duman alıb.
Mənim qəmli könlümü,
Əl çatmaz güman alıb.

## SƏDİ BİR EL OZANIDI

Həyat qaynar qazanıdı,
Dərd əhli qəm yazanıdı,
Sədi bir el ozanıdı,
Gördüyünü deyər gedər.

Oba-oba, el-el gəzər,
El söhbəti sözün bəzər
Ağ vərəqə bir-bir düzər,
Dost qapısın döyər gedər.

Dosta verib çörəyini,

Çevirməyib kürəyini,
Öz içində ürəyini
Ruzu bilib yeyər gedər.

Göz görəni deyər, yazar,
Gördüyünü xeyrə yozar
Canda olsa azar – bezar,
Qəm belini əyər gedər.

Haqq yoludur onun yolu,
Ürəyində inam qolu,
Dünya əzəl, dünya ulu,
Bu dünyadan doyar gedər.

## QORU

Allah məni xətalardan
Bəlalardan hərdən qoru.
Heç qalmayım xəcalətli,
Xəcalətli tərdən qoru.

Düz yolumdan çıxsam qıyma,
Dar günümdə çat hoyuma.
Bir kimsəyə möhtac qoyma,
Məni dərddən, sərdən qoru.

Çoxu şeytan balasıdı
Şeytan kimi qalasıdı,
Başdan-başa çalasıdı
Sən böhtandan, şərdən qoru.

Sənsən mənim tək pənahım,
Yox qarşında bir günahım,
Sənə çatsa bir gün ahım,
Məni yerdən, göydən qoru.

## GÜLƏN OLMADI, OLMADI

Yanağımdan göz yaşını,
Silən olmadı, olmadı.
Bu əlaçsız dərdlərimi
Bilən olmadı, olmadı.

İstədim arzum bildirəm,
Dərd əhlini bir dindirəm.
Çalışdım ki, hey güldürəm,
Gülən olmadı, olmadı.

Ürəklər də dönmüş daşa,
Dayanıb, durub baş-başa
Ha dindirdim ki, danışa,
Dinən olmadı, olmadı.

Varı, yoxu böldüm yarı,
Verdim dosta yarı-yarı.
Vəfasızdan etibarı,
Görən olmadı, olmadı.

## NƏĞMƏLƏRİM DİLƏ DÜŞDÜ

Nəğmələrim dilə düşdü,
Gəzib eldən-elə düşdü.
Sümüyümə elə düşdü,
Əl qaldırıb oynatdım mən.

Adamların çoxsundan,
Nadanların qorxusundan,
Yatmışları yuxusundan,
Harayımla oyatdım mən.

Ağartmışam vaxtsız başı,
Sevməmişəm zəri-qaşı.
Sözlərimlə dağı, daşı
Öz yerindən oynatdım mən.

Hər pöhrəyə, hər budağa,
Hər çiçəyə, hər yarpağa,
Öz kökümlə bu torpağa
Bağlandıqca boy atdım mən.

## GÖZÜM DOLUB BULUD KİMİ

Gözüm dolub bulud kimi,
Yaşı silədi-silədi.
Kirpiyimdə muncuq kimi,
Yaşı gilədi-gilədi.

Çiçəklərin yanağını
Qönçələrin dodağını,
Narın şehi yanağını,
Tamam bələdi-bələdi.

Günlər ötür ömür-günnən,
Ötür aylar, illər, günnən.
Bu dünyada əzəl günnən,
Zaman belədi-belədi.

Bulud ötür yağır yağış,
Bu sədadı, ya da çağrış.
Yerə alqış, göyə alqış,
Elə dilədi, dilədi.

## TÖK BAŞIMDAN

Ey qaralıb dolan bulud,
Yağışını tök başımdan.
Lay-lay, qat-qat olan bulud,
Göz yaşını tök başımdan.

Ey qovrulub yanan ocaq,
Atəşin var qucaq-qucaq.
Bir köz daşla nə olacaq,
Köz daşını tök başımdan.

Ey sonasız qalan göllər,
Ey saralan, solan çöllər,
Gözü yaşlı şehli güllər,
Göz yaşını tök başımdan.

Ey çəmənli düzən dağlar,
Gül-çiçəklə bəzən dağlar.
Hər bir dərdə dözən dağlar,
Döz, daşını tök başımdan.

Ey dağların coşan seli,
Çövlan edib əsən yeli,
Qarış-qarış əs, ax, yeri,
Düz daşını tök başımdan.

Ey qaynayan sərin bulaq,
Gəl, səninlə həmdəm olaq,
Göz yaşı tək duruláraq,
Süz yaşını tök başımdan.

Ağır imiş demə daşım,
Nələr çəkmiş, Allah, başım.

Nə söyləyim, nə danışım,
Öz daşımı tök başımdan.

## BACILAR

Qardaşı şən görsə doğma bacılar,
Yox olar könlündən ağrı-acılar.
Yanaqları gülər, eyni açılar,
Əl tutar, görüşər, hal-əhval eylər.

Hər toyda, nişanda qol – qanad açar,
Sevincdən, fərəhdən quş kimi uçar,
Qardaş görüşünə yüyürər, qaçar,
Dilini gah şəkər, gah da bal eylər.

Nə küsü saxlayar, nə sirrin danar,
Atanı yad edib, Ananı anar,
Qardaşlar halına acıyar, yanar,
Baxar gözlərinə min xəyal eylər

Dərdini deməyə, dərdin bölməyə,
Ürəkdən danışıb, deyib, gülməyə,
Vaxtsız-vədəsiz gələr görməyə,
Qardaşın qapısına, hər gün yol eylər.

2006

## O ŞİRİNLİK HARDA QALDI GÖRƏSƏN…

Yadındımı, qarlı dağlar qoynunda
Tamaşalı bir obamız var idi.
Cənnət kimi bağ-bağçalar qoynunda,
Öz komamız, öz yuvamız var idi.

Qar düşəndə zirvələrin başına,
Dayanmazdı soyuq payız yağışı.

Yığışardıq bir ocağın başına,
Qızınardıq, isinərdik hər qışı.

Aramızda bir seçkilik yox idi,
Bir "taxt" üstə hamı birgə yatardıq.
Arzu, istək, diləyimiz çox idi,
Sevgimizi bir-birinə qatardıq.

Boy atdıqca pərvazlanıb, uçurduq,
Bizə doğma Ata-Ana evindən.
Qayıdardıq, qaranquş tək hər bahar,
İldə bir ay, atamızın evinə.

Xoş günləri yada salıb gülərdik,
Unudardıq dərdimizi bir anlıq.
Bir-birmizi dindirərdik, dinərdik,
Xoş sözlərlə, söhbətlərlə hər anlıq.

Ata köçdü, Ana köçdü dünyadan,
Pərən düşdük, paralandıq, ayrıldıq.
O xoş günlər heç çıxmayır yadımdan,
Aramızda nə oldu ki, ayrıldıq?…

Hara getdi, mehribanlıq, o, birlik?
Viran oldu yurdar kimi qəlbimiz.
Böyüyəndə itib-batdı şirinlik,
Nədən olduq evlənəndə belə, biz?

Bir-birmizə xoş gəlməyir sözümüz,
Dindirəsən, danışasan, güləsən.
Calaq kimi daha tutmur sözümüz,
O şirinlik harda qaldı, görəsən?..

Hər biriniz bir Atasız, bir Ana,
İncitməyək Ata-Ana urfunu.
And verirəm, sizləri mən, Allaha!
Qayıdaq biz – o birliyə, o ana,

Sevindirək ululların ruhunu,
Sevindirək Ata-Ana ruhunu!

*05.11.2005*

## SAÇIM AĞDIR

Saçım ağdır, bəxtim qara,
Ürəyim də para-para.
Fikrim gedir haralara…
Yollar uzun, mən gümansız,
Həyat acı, həm amansız.

Biz piyada, illər atlı,
Günlər - aylar yel qanadlı.
Yaşadığımız ömür adlı
O da şirin, gah da acı,
Yox dərmanı, yox əlacı.

Saydığını sayır fələk,
Biz bir dənik, zaman ələk.
Dəyirmanda üyünərək
Ələyindən ələnərək,
Gah un edir, gah da kəpək…

## ÇƏTİN Kİ, TEZ UNUDULAM

Sanki dağların özüyəm,
Qaynar çeşmələr gözüyəm.
Mən bir atalar sözüyəm,
Çətin ki, tez unudulam.

Dağ zirvədə qar saxlayar,
Bağça-bağlar bar saxlayar,
Ana torpaq yer saxlayar,
Çətin ki, tez unudulam.

Yazda güllər gözlər məni,
Dərə, təpə, düzlər məni,
Saxlar şirin sözlər məni,
Çətin ki, tez unudulam.

Hər cığırda izim vardı,
Hər dodaqda sözüm vardı,
Hər çiçəkdə gözüm vardı,
Çətin ki, tez unudulam.

Kimi dərviş sanar məni,
Kimi görüb qınar məni,
Dost-tanışlar anar məni,
Çətin ki, tez unudulam.

## DOĞMA, ƏZİZDİ

Ata ocağı,
Ana qucağı,
Doğma, əzizdi,
Böyük Vətənin,
Hər bir bucağı.

Çeşməsi təmiz,
Suyu tər-təmiz.
Hər bir damlası
Bizlərə əziz.

Daşı, qayası,
Otu, tayası,
Sirri aləmdir,
Onun dünyası.

Güllər-çiçəklər,

Gözəl-göyçəklər,
Min-bir rəng verir,
Açan ləçəklər.
Çeşmənin gözü,
Bülbülün özü,
Necə doğmadır,
Atalar sözü.

Dağların qarı,
Bağçanın barı,
Gözəl, göyçəkdir
Hər kəsin yarı.

## BİZƏ DOĞMA VƏTƏNDİ

Gəncliyimiz, əzizim,
Günlər kimi ötəndi.
Sevincimiz, əzizim,
Kədər ilə o təndi.

Sevgimdən güc alanım,
Gecə-gündüz olanım,
Eh… halıma yananım,
Alışmağın nədəndi?…

Nə tüstün yox, odun yox,
Yanmağa da odun yox.
Alışmağa odum yox…
Alışan da bədəndi.

Qorxma gül dərəndə,
Güllər boynun əyəndə.
Gözəl bahar gələndə,
O, təzədən bitəndi.

Bu çığırlar, bu yollar,

Aşırımlar, dolaylar,
Aramızda olanlar,
Bu dünyada itəndi.

Bu yerlərin torpağı,
Coşan çayı, bulağı.
Otu, gülü, torpağı,
Bizə doğma Vətəndi.

Dərdimi kim biləsi,
Kim görüb, kim böləsi.
Kimsə görməz beləsi…
Hövsələm də tükəndi…

## BİZ BİR YOLUN YOLÇUSUYUQ

Ocaq yanır, tüstü çıxır,
Elə burula-burula.
Yağış yağır, sellər axır,
Elə durula-durula.

Yeni-yeni yol çəkilir,
Torpaq şumlanıb, əkilir,
Evlər sökülüb tikilir,
Elə qurula-qurula.

İstər varlı, kasıb yaşa,
Var dövlətin başdan aşa,
Vuracaqsan ömrü başa,
Elə vurula-vurula.

Biz bir yolun yolçusuyuq,
Yarı torpaq, yarı suyuq,
Torpaq altda uyuyuruq,
Elə qovrula-qovrula.

## *QURTARMAQ OLMAYIR*
## *EL QINAĞINDAN*

### KÖNLÜM

Qurtarmaq olmayır el qınağından,
Ducar olmayasan qınağa, könlüm.
Çoxları çıxammır dost sınağından,
Səni çox çəkiblər sınağa, könlüm.

Dərdli söhbət açar sinə dağından,
Oylaqları gəzən binə – dağından.
Qalxanı gördünmü, enə dağından!?..
Dönübsən əzəldən yaylağa, könlüm.

Keçən gün əlini üzür əlimnən,
Gələn gün bezikir, bezir əlimnən,
Ötən gün hələ də dözür əlimnən,
Alışa bilmədin qılığa, könlüm.

Eh!.. Ömr bənzəyir sarı yarpağa,
Ağırlıq eyləyir yaşıl budağa,
Tökülür torpağa, dönür torpağa,
Dönəcəksən bir gün  torpağa, könlüm.

Əbədi deyildir dünyada insan,
Qalmayır heç kəsə nə şöhrət, nə şan.
Bu qoca Sə'diyə zənn ilə baxsan,

Görərsən, bənzəyir qonağa, könlüm.
31.08.2004

## GETDİ

Məndən kənar gəzmə, ay ömrüm – günüm!
Ömrümün bağları söküldü, getdi.
Mənim də gəncliyim, ay ömrüm – günüm!
Qonaq tək üzümə o, güldü, getdi.

Bənzəyir qırova, qara, saçlarım,
Hicran öz əliylə, darar saçlarım,
Möhnətə dözməyən qara saçlarım,
Ağardıqca bir-bir töküldü, getdi.

Bu fane dünyadan kimsə yox razı,
Çoxunun gözündə qaldı murazı.
Dünya nemətinə mən də tamarzı,
Ağzımda dişlərim söküldü getdi.

Bir kəs incimısin mənim sözümdən,
Razı qalammıram, özüm-özümdən.
Dünyanın işığı, nuru gözümdən,
Ağ dumanlar təki çəkildi, getdi.

Sə'diyəm, gənclikdən yox mən də əsər,
Canımda çovğunlar, küləklər əsər,
Ağrılar qılınc tək belimi kəsər,
Heyf!.. Şux qamətim, büküldü, getdi.

## KÖNLÜM VİRAN QALMIŞ ELLƏR KİMİDİ

Yaman doluxmuşam, çeşmələr kimi,
Gözlərimin yaşı sellər kimidi.
Könlüm viran qalmış yaylaqlar kimi,
Yurdları boş qalmış ellər kimidi.

Bir arzu, istəyə çata bilməyən,
Gecələr yerində yata bilməyən,
Dərdi öz üstündən ata bilməyən
Könlüm, çən-dumanlı günlər kimidi.

Quş tək uçub getdi hər arzu, dilək,
Nə bir həvəs qaldı, nə də bir istək.
Köksümün başında titrəyən ürək…
Qışda xəzan vurmuş güllər kimidi.

Toxunma yarama, ey zalım, nadan!
Fəryadım ucalmaz göylərə inan.
Bil ki, dil açanmaz toxunan zaman,
Könlüm kökdən düşmüş tellər kimidi.

07.12.2004

## NƏLƏR ÇƏKDİM İSTƏYİMƏ ÇATINCA

Neçə-neçə oddan, sudan keçmişəm,
Bir amala, bir arzuya çatınca.
Eşq yolunda mən Fərhadı keçmişəm,
Yolum üstə hər qayanı çapınca.

Neçə dəfə daşa dəyib əzildim,
Əriyərək kağız kimi nəzildim,
Budağımdan yarpaq kimi üzüldüm,
Bu dünyada istəyimi tapınca.

Qəm yükünü hey çiynimdə daşıdım,
O dağlardı, sanki  mənim yaşıdım.
Bir arzuyla, bir amalla yaşadım,
Nələr çəkdim… istəyimə çatınca.

Ömr getdi, əldən uçmuş cavanlıq,
Qocalığa demə tuşmuş cavanlıq,
Gözləmədi, uçan quşmuş cavanlıq,
Mən özümə bir yurd, yuva qurunca.

Sə’di deyir, bu həyatda nələr mən
Nələr çəkdim, Allah, nələr, nələr mən?!..
Nələr gördüm, nə eşitdim, nələr mən!..
Sirli dünya, sirr qapını açınca.

## DİNDİRMƏYİN MƏNİ

Gəl məni kövrəltmə, ağləsam əgər,
Süzülər gözümdən yaş, gilə-gilə.
Saxlaya bilmərəm dolmuş bulud tək,
Axar yanağımdan yaş, gilə-gilə.

Yoxdur bir həmdəmim, yoxdur sirdaşım,
Nədən söhbət açım, kimlə danışım.
Möhnətlər içində qarışıb başım,
Dözürəm möhnətə yaş, silə-silə.

Sinəmdən dağ çəkib dağlayan oldu,
Qoyub qabağına ağlayan oldu,
Məlhəm qoyan oldu, bağlayan oldu,
Toxunan olmasın kaş, gülə-gülə.

Dindirməyin məni, dilim qan ağlar,
Gözümdə çeşmə tək göz yaşı çağlar.
Sə’dinin dərdini o, dərdli dağlar

Çəkəmməz, torpağı daş bilə-bilə.

## DAĞ ÇƏKƏ BİLMƏZ

Teylədim mən sola, sağa dərdimi,
Əlimdən dad edib, ah – aman çəkdi.
Bükdüm gah qaraya, ağa dərdimi,
Məni imtahana o yaman çəkdi.

Bələyərək bala, yağa dərdimi,
Ata kədərimi, çağa dərdimi.
Söz açdım, danışdım dağa dərdimi,
Başına qar yağdı, sis – duman çəkdi.

Tutuldu göylərin qaşı, qabağı,
Kişnəyən buludlar söylədi ağı.
Dedi: – çəkmək olmaz belə bir dağı,
Leysan yağış yağdı, el ziyan çəkdi.

Güc aldı sellərdən daşdı çayları,
Çınqıllı çayları, daşlı çayları.
Kükrəyib həddini aşdı çayları,
Hayqırıb daşması bir zaman çəkdi.

Bu qədər dərdlərə dağ, dözə bilməz,
Gül – çiçəyi solar bağ, dözə bilməz,
Sə'di bu dərdlərə sağ, dözə bilməz,
Onun əvəzinə bir cahan çəkdi.

## DAĞLAR NEYLƏSİN

Bülbül tək dil açıb nəğmələr deyən,
Dilimi bağlayıb, lal eylədilər.

Hər gələn gül dərdi sevda bağımdan,
Bağrımı lalə tək, al eylədilər.

Doğmalar axtarıb, dostlar gəzirdim,
Gözlərim yollarda yol gözləyirdim,
Dağların yanında dağa bənzərdim,
Quzeyə döndərib, yal eylədilər.

Qədir-qiymət bilməz alçaq, bikəslər,
Nainsaf, namürvət olan hər kəslər,
Bu kövrək qəlbimi nadan, nakəslər,
Çığnayıb üstündən, yol eylədilər.

Xəzan vuran yerdə bağlar neyləsin,
Gülü solmuş bülbül ağlar, neyləsin,
Sə'di!.. Dağ dərdinə dağlar neyləsin,
Dərdini bağrında xal eylədilər.

## BƏS ONDA BİÇARƏ SƏ'Dİ NEYLƏSİN

Soyuğa, sazağa bir gül dözmürsə,
Bəs onda, biçarə Sə'di neyləsin?
Bir qönçə solanda, bülbül dözmürsə,
Bəs onda, biçarə Sə'di neyləsin?

Qəm döşündən dilin qəmlər əmdisə,
Qismətinə düşən, kədər, qəmdisə,
Gözlərin dolubsa, yaşla, nəmdisə,
Bəs onda, biçarə Sə'di neyləsin?

Dağların başını duman alanda,
Yolunu yamaçdan, yaldan salanda.
Yollar ayrıcında, tənha qalanda,
Bəs onda, biçarə Sə'di neyləsin?

Ağır məclis görən, xoş anlar görən,
Çovğunlara düşən, boranlar görən,

Ayrılıqlar görən, hicranlar görən,
Bəs onda, biçarə Sə'di neyləsin?

Döndərmə könlünü qəm oylağına,
Çox olar qalxanlar, qəm yaylağına.
Dönərsə göz yaşın qəm bulağına,
Bəs onda, biçarə Sə'di neyləsin?

Barış öz bəxtinlə, taleyinlə, sən,
Bil ki, qismətindən qaça bilməzsən.
Axtarıb sən məni tapa bilməsən,
Bəs onda, biçarə Sə'di neyləsin?

22.11.2004

## QOCALDAN MƏNİ

Deyirsiz qocaldın, a dost, sirdaşım.
Nə edim zəmanədir qocaldan məni.
Bir də ki, vəfasız qohum, tanışın,
Tə’nalı sözüdür qocaldan  məni.

İstədim nazını çəkəm eşqimin,
Laylasını çalam, o kam eşqimin.
Ağrısın çəkdiyim nakam eşqimin
İlk gündən özüdür qocaldan məni.

Xoş gündə, şad gündə yaxın dostların,
Etibardan düşmüş vəfasızların,
Əğyara çevrilmiş bivəfa yarın,
Tikanlı sözüdür qocaldan məni.

Deyirsiz ay Sə’di, ağarıb başın,
Dən düşüb saqqala, ağarıb qaşın,

Nə edim, halımdan bihal «qardaşın»,
Ədalı sözüdür qocaldan məni.

## VALLAH

Odlara atsan da yanan deyildim,
Bir acı sözünlə yandırdın, vallah.
Dəmir tək əyilsəm sınan deyildim,
Sən polad belimi sındırdın, vallah.

Niyə duymamışdım soyuqluğunu,
Bilə bilməmişdim donuqlduğunu,
Unutdum həyatda var-yoxluğunu,
Sən məni buz kimi dondurdun, vallah.

Naləmi yazıblar zil, bəmin üstə,
Köklənib qəlbim də bil, qəmin üstə,
Havamı sən çaldın, «dilqəmi» üstə,
Bütün varlığımı dandırdın, vallah.

Daha düşkün könlüm dil aça bilməz,
Getdi bahar ömrüm, gül aça bilməz,
Sə'di sənə daha əl aça bilməz,
Özünü əğyara döndərdin, vallah.

## QOY DESİN

Çilik-çilik çiliklənmiş könlümə,
Kim dəyirsə, özü bilər qoy dəysin.
Üz olsa da, astar olan könlümə,
Kim nə deyir, özü bilər, qoy desin.

Yadlar gəlib mənə sirdaş deyirlər,
Dostlar gəlib doğma, qardaş, deyirlər.
Nakəslər də… ürəyi daş deyirlər,

Kim nə deyir, özü bilər… qoy desin.

Hamı bilir bəd əməldən uzağam,
Yalanlardan, böhtanlardan duzağam.
El içində başı uca, üzü ağam,
El biləndi, özü bilər, qoy bilsin.

Yaxşı baxın qoca, yaşdı Sə'diyə,
Söz atmayın, başı daşdı Sə'diyə,
Qubar çökmüş, gözü yaşdı Sə'diyə,
Öz insafı, kim nə edər, qoy etsin.

## NƏDƏNDİR

Bu qədər qəm – kədər sığan könlümə,
Nədəndir, bir sevinc sığışa bilmir?
Dərd gəlib baş qoyub bu gen köksümə,
Ürəksə yerinə yığışa bilmir.

Min cür ətir saçır hər açan çiçək,
Könül də dil açır yarın görəcək.
Nədəndir, bir sözlə qırılan ürək,
Min şirin söz ilə barışa bilmir?

Tanrı bir ömürü əmanət verir,
Vaxtı-vədəni də qənaət verir,
Quşlara uçmağa qol-qanad verir,
Nədəndir, hər quş da dağ aşa bilmir?

Sevgi nəğməsini deyən dodaqlar,
Sevirəm kəlməsin deyən dodaqlar,
Nədəndir, nədəndir, görən dodaqlar,
Biri-birisiylə yovuşa bilmir?

Canlıya can gəlir hava – su ilə,

Çirkablar paklaşır axar su ilə.
Nədəndir, şor sular şirin su ilə,
Bir dərya qoynunda qovuşa bilmir?

Yerdə hər nə varsa, o göylər bilir,
Yağış da, işıqda göylərdən gəlir.
Nədəndir, hər bəla göylərdən enir?
Yer isə xətadan sovuşa bilmir?

Allahın əmriylə yaranan dünya,
Ulduzlu göylərlə, yer olan dünya,
Ulu göylər Atam, yer Anam dünya,
Nədəndir, Sə'diylə danışa bilmir?..

## BU DÜNYADAN KİM DOYUB Kİ, MƏN DOYAM

Dünya şirin, dünya gözəl dünyadır,
Bu dünyadan kim doyub ki, mən doyam.
Dünya köhnə, dünya əzəl dünyadır,
Bu dünyadan kim doyub ki, mən doyam.

Rəssam kimi dört fəsli var onun,
Dağlar onun, zirvə onun, qar onun.
Gül-çiçəkli bağlar onun, bar onun,
Bu dünyadan kim doyub ki, mən doyam.

Ayna kimi gölləri var sonalı,
Qayalarda keklikləri xınalı,
Zümrüd gözlü çeşmələri aynalı,
Bu dünyadan kim doyub ki, mən doyam.

Başdanbaşa bir nağıldı dünyamız,
Dərrəkadı, bir ağıldı, dünyamız,
Şirin-şəkər, bir noğuldu, dünyamız,
Bu dünyadan kim doyub ki, mən doyam.

Sirli dünya, sirr açarın kimdədi?
İnsan üçün bircə ömür, bu nədi?
Mən deməyim, barı sən de, ay Sə'di,
Bu dünyadan kim doyub ki, mən doyam?

## İSTƏYİMİ EDƏMMİRƏM

Bir qanadı senmış quşam,
Gəh-gəh vurub ötəmmirəm.
Bir budağam,qurumuşam,
Çiçəklənib bitəmmirəm.

Gah «Çahargah», gah da «Şur»am,
Alışdıqca tutuşuram,
Ha əlləşib vuruşuram,
İstəyimi edəmmirəm.

Zaman mənlə öc olubdu,
Zora salıb, güc olubdu,
Görürəm ki, gec olubdu,
İstəyimə yetəmmirəm.

## DÜNYA

Yaxşını yamandan seçə bilmirsən,
Çox erkən düşürsən peşindən, dünya.
Bir fərq qoymursan mərdə, namərdə,
Elə keçirirsən dişindən, dünya.

Neçə cavanları nakam qoyursan,
Qızılgül koluna tikan qoyursan,
Azad bircə şəhər, məkan qoyursan?..
Niyə utanmırsan yaşından, dünya!?

Kimi ağa etdin, kimini nökər,
Kimi yeyib, içər, kimi qəm çəkər,
İxtiyar olsaydı əlimdə əgər…
«Medallar» asardım döşündən, dünya.
Gedənlərin çoxu gedir narazı,
Qalır gözlərində arzu, murazı.
Bir kəsi görmədim, getsin irazı,
Sənin əməlindən, işindən, dünya.

Sə'dini yox yerdən dara çəkirsən,
Bəxti iqbalına qara çəkirsən,
Özü də bilməyir, hara çəkirsən…
Tökürsən dərdləri başından, dünya.

## OLMASAYDI…

Dünyanın dərdinə dözməzdi ürük,
Düşünüb, daşınan baş olmasaydı.
Ayrılıq, nə hicran, nə qəm olardı,
Döyünən ürəklər daş olmasaydı.

İnsanlar allanıb, aldadardımı,
Dostu düşməninə heç satardımı,
Vəfalı yarını, yar atardımı,
Şeytan əməlinə tuş olmasaydı.

Adama gen dünya darmı gələrdi,
Sevilib, sevilmək armı gələrdi,
Gözə pərdə gəlib, tormu gələrdi,
Ağlayan gözlərdə yaş olmasaydı.

Məmləkət yıxılıb, yurd dağılmazdı,
Nə bir müharibə, savaş olmazdı,
Şahların sarayı viran qalmazdı,

Dünyada qızıl, qaş-daş olmasaydı.

Yoxdur bu dünyaya etibar, vəfa,
Aşiqi-məcnunlar çox çəkib cəfa,
Sə'di gözəllərlə sürərdi səfa,
Başının qaxıncı yaş olmasaydı.

10.03.2004

## SAXLAYA BİLMİRƏM QALAN ÖMRÜMÜ

Çalışıb bir yerə yığa bilmirəm,
İllərin əlində talan ömrümü.
Neyləyim, səhmana sala bilmirəm…
Elə talan-talan olan ömrümü.

Saçlarım yellərin əlində qalıb,
Sözlərim quşların dilində qalıb,
Gözlərim dağların yolunda qalıb,
Haradan yığşırım talan ömrümü.

İndi nə uşaqlıq çılğınlığı var,
Nə gənclik həvəsi, çoşğunluğu var,
Nə də bir cavanlıq vurğunluğu var,
Saxlaya bilmirəm qalan ömrümü.

Quş kimi dənlədi günlər, neyləyim,
Şum etdi yerini aylar, neyləyim,
Yaman viran etdi illər, neyləyim,
Gül kimi açılan, solan ömrümü.

Qocalığın xofu çöküb üstümə,
Dərdi, kədəri də töküb üstümə,
Əzrail qılıncı çəkib üstümə,

Aparmaq istəyir qalan ömrümü.

Sə’diyəm hər şeydən cana gəlmişəm,
Zalım əcəl ilə mən üzləşmişəm,
Gücümü toplayıb cəngə girmişəm,
Qorumaq istərəm qalan ömrümü.

## UDUZDUM

Ömr sürdüm, dedim könlüm xoş oldu,
Bir zər atdım, düşüb qoşa “beş” oldu.
İllər atdı, qoşalaşıb “şeş ” oldu,
Mən aylara, mən illərə uduzdum.

Borca getdim vaxt vədənin yanına,
Kasıb görüb o susadı qanıma.
Bir vəlvələ, qorxu saldı canıma,
Vaxt-vədəyə, mən günlərə uduzdum.

Darayardım saçlarımı yel ilə,
Yuyunardım ota düşmüş şeh ilə,
Günlər getdi dağdan aşan sel ilə,
Mən yellərə, mən sellərə uduzdum.

Könül verdim, bir vəfasız gözələ,
Dedim: - könlüm bir açıla, bir gülə,
Gənc ömrümü o döndərdi xəzələ,
Mən güllərə, gözəllərə uduzdum.

Gedir elə, gedir ömrün xoş anı,
Saxlamaq olmayır gedən karvanı.
Sə’dinin də bir gün bitər dövranı,

Şirin-şirin mən sözlərə uduzdum

## QORXMUŞAM

Vəlvələr içindəyəm,
Sudan, oddan qorxmuşam.
Biganələr arasında
Ögey, yaddan qorxmuşam.

Öz sirrimi açmam yada,
Yağı olar bir gün o da,
Şirinliyi dada-dada,
Acı daddan qorxmuşam.

Hər nə olsa o olacaq,
Təmiz, yaxşı ad qalacaq,
Bu dünyada ancaq, ancaq,
Mənfur addan qorxmuşam.

## DÖZƏMMƏZ

Elə dərdim vardır mənim,
Dərdlərimə dağ dözəmməz.
Qovruluram öz içimdə,
Ürək ona sağ dözəmməz.

Xəzan yeli əsib, könül,
Səbrimi də kəsib, könül,
Nə olubsa bəsim, könül,
Bu xəzana bağ dözəmməz

## QƏM GÖLÜNDƏ BATARAM MƏN

Bir saralmış yarpaq görsəm,
Qəm göləndə bataram mən.
Bir qaralmış torpaq görsəm,
Qəm gölündə bataram mən.

Solan çiçək, ya gül görsəm,
Qəmli ötən bülbül görsəm,
Dənsiz qalmış sünbül görsəm,
Qəm gölündə bataram mən.

Sönmüş ocaq, çıraq görsəm,
Gözdən uzaq, iraq görsəm,
Bir yad, ögey, qıraq görsəm,
Qəm gölündə bataram mən.

Başı qarlı bir dağ görsəm,
Xəzan vurmuş bir bağ görsəm,
Bir qurumuş bulaq görsəm,
Qəm gölündə bataram mən.

Saçlarında mən dən görsəm,
Gözlərində yaş, nəm görsəm,
Qüssə, kədər, bir qəm görsəm,
Qəm gölündə bataram mən.

Kimsəsiz bir oba görsəm,
İxtiyar bir baba görsəm,
Anasız bir bəbə görsəm,
Qəm gölündə bataram mən.

## GEDƏR

Hər kəs ağır qəm yükünü,
Bildiyi tək çəkər, gedər.
Ömrü-günü göy əskiyə,
Hərə bir cür bükər, gedər.

Gah düşürük haldan-hala,
Az qalır ki, əldən sala.
Kimi koma, kimi qala,
Kimi saray tikər, gedər.

Başsız boran, yel oynasa,
Silkələnib yer oynasa,
Öz yerindən sel oynasa,
Qayaları sökər, gedər.

Əl çatammaz o illərə,
Ömrü vermə boş yellərə,
Məlhəm olan könüllərə,
Sevinc dəni əkər, gedər.

Olanları sən də unut,
Bir kimsəyə olma umud,
Başın üstən qara bulud,
Yağış, dolu tökər, gedər.

Keçənləri salma yada,
Bir gün səni atar oda,
Çatan olmaz kimsə dada,
Bu torpağa çökər, gedər.

Heç pozmadan öz halını,

Sə’di sürür dövranını,
Bir gün ömür karvanını,
Bu dünyadan çəkər, gedər.

## QORU SAXLA

Allah verən iki üzü,
Sən ismətlə qoru, saxla.
Şeytan olub min bir üzü
Olanlardan qoru, saxla.

Yerli-yersiz ağlamaynan,
Sinələri dağlamaynan.
Çox yas tutub, saxlamaynan,
Göz yaşını qoru, saxla.

Üz çevirmə sən sirrdaşdan,
Dost çıxanmaz qəlbi daşdan.
Bulandırma suyu başdan,
Çeşmələri duru saxla.

Doğmalara aç qucağın,
Qoy nurlansın künc-bucağın,
Qoyma sönsün od-ocağın,
Osağında qoru saxla.

Tikanlıqdan sən gözünü,
Qədirbilməzdən sözünü,
Müxənnətdən sən özünü,
Sə'di!…özün qoru, saxla.

## MƏNİMLƏ İŞİN OLMASIN

Dünya, sənlə işim yoxdur,
Mənimlə işin olmasın.
Yarımçıq işlərim çoxdur,

Mənimlə işin olmasın.

Rüzgarını dağda əstir,
İstər doğra, içtər kəsdir,
Görəcəyim mənə bəsdir,
Mənimlə işin olmasın.

Zirvələrə çalma bağla,
Quzeylərdə buz, qar saxla,
Çeşmə olub hər vaxt sağla,
Mənimlə işin olmasın.

Yağdırsan da leysan, yağış,
Hər işinə min bir alqış.
Mənə lazım deyil alxış,
Mənimlə işin olmasın.

Yol yoldaşın olanmaram,
Bir yerdəcə qalanmaram,
Sənlə rahat dolanmaram,
Mənimlə işin olmasın.

Vaxt gələndə gedəsiyəm,
O badədən içəsiyəm,
Bir gün səndən körəsiyəm,
Mənimlə işin olmasın.

Yarı torpaq, yarı suyam,
Bir gün gələr susasıyam,
Mən də torpaq olasıyam,
Mənimlə işin olmasın.

Əzəlisən sən ay dünya!
Məzəlisən, sən ay dünya!
Düzəlisən, sən ay dünya!?

Mənimlə işin olmasın.
27.08.2003

## QORU SƏN ALLAH

*Nə gəda oğlundan bir kişi çıxmaz,*
*Nə də, gəlin çıxmaz gəda qızından.*
*Qoru bu dünyanı, qoru sən Allah!*
*Gəda oğulundan, gəda qızından. (S.Y)*

Həyatda hər kəsin öz yeri vardır,
Yersizdən dünyanı qoru sən, Allah!
Hər kəsin öz arı – abırı, vardır,
Arsızdan dünyanı qoru sən, Allah!

Nədəndir mərdlərin  sayı azalır?
Nadanlar aqili sayı az alır,
İndi namərdlərin sayı çoxalır,
Namərddən dünyanı qoru sən, Allah!

Kimi əllərinə tüfəng, ox alır,
Kimi az çalışıb daha çox alır.
Dinsiz – imansızın sayı çoxalır,
Kafirdən dünyanı qoru sən, Allah!

Ara qarışıbdır, çaxnaşır dünya!
Dəniz tək coşubdur, bax, daşır dünya!
Bir yandan dağılıb, bağlaşır dünya!
Bəladan dünyanı, qoru sən Allah!

Havadan hey  gəlir, barıt qoxusu,
Həyacan siqnalı, dava qorxusu.
Narahat dünyanın qaçıb yuxusu,
Xatadan dünyanı qoru sən, Allah!

Nə qədər yurd-yuva talanlar olar,
Qaçqına-köçkünə yalanlar olar.

Nə qədər qırılıb, qalanlar olar,
Talandan dünyanı, qoru sən, Allah!

Yol  göstər yolunu tez  azanlara,
Ağıl ver,  ağılı  az olanlara.
İnsaf ver  xainə, gor qazanlara,
Xaindən dünyanı, qoru sən, Allah!

Azıbdır yolunu bəndələr, Allah!
Bəndəni ram eylə, bənd eylə, Allah!
Onda öz yerində bənd alar dünya,
Qoru bu dünyanı, qoru sən, Allah!

Qaytar insanları, qaytar özünə,
Qaldır pak olanı göyün üzünə.
Qaytar bu dünyanı, qaytar özünə
Qurtar bəlalardan, qoru sən, Allah!

## GÖNDƏR SÜLEYMANI SƏN YER ÜZÜNƏ

Nə abır qalıbdır, nə ar, nə həya,
Elə günü – gündən  lütləşir insan.
İndi tamah salıb ulduza, Aya,
Allahı unudub, bütləşir insan.

İtirib isməti, namus – qeyrəti,
Pozulublar tamam, azıb yolunu.
İtirib adama olan hörməti,
İblisin boynuna salıb qolunu.

Ayıblı da gedib ayıbın örtmür,
Əylənmək yerləri, xıl axtarırlar.
“Öz gözündə kərən görməyən” kəslər,
Özgənin gözündə qıl axtarırlar.

Yaman şeytanlaşıb yer adamları,
Şeytanlıq öyrədir şeytana indi.
Mələklər donunda yer adamları,
Elə "papuş" tikir şeytana indi.

İsrafil çalsa da sur tütəyini,
Oyanan deyillər, yatıb insanlar.
Var, dövlət yığmağa başını yaman,
Gecə də, gündüz də qatıb insanlar.

Artıq üzə çıxıb mis qazan kimi,
Bütün adamların paxırı, Allah!
Müqəddəs Quranda yazılan kimi,
Yetişib dünyanın axırı, Allah!

Dünyaya yiyəlik edən çoxalıb,
Fironluq eyləyir onlar dünyada…
Musanı sən göndər, yola çıxarıb,
Onları batırsın coşan dəryada.

Göndər, Nuhu göndər, sən yer üzünə,
Qarışıq dünyada təmizlik etsin.
Göndər Süleymanı, sən yer üzünə,
Gəlib öz mülkünə yiyəlik etsin.

08.04.2004

## EY FƏLƏK

Mən nə həvəsdəyəm, sən nə həvəsdə,
Giribsən mənimlə elə bil qəstə.
Sən canı sulusan, mən canı xəstə,
Kaş ki, quruyaydı arxın, ey fələk!

Alın yazısı da verilən paydı,

Bu pay gah sevincdir, gah da ki, vaydı.
Bu nə köç-ha-köçdür, bu nə haraydı,
Kaş ki, qırılaydı çarxın, ey fələk!

Bizim axırmızı heç eyləmisən,
Ömrü-günümüzü puç eyləmisən.
Bir başdan başlayıb köç eyləmisən,
Yoxdur heç bir kəsdən qorxun, ey fələk!

Kimin əlindədir görən zəmanə?
De, kimlər mələkdir, kimlər divanə?
Nə deyim, nə deyim belə dövrana,
Görən nə olacaq axırın, ey fələk?…

## DEYƏMMİRƏM DƏRDLLƏRİMİ BİR KƏSƏ

Öz içimdə batırmışam səsimi,
Qırılıbdır boğazımda səs simi,
Çıxarmıram çıqqırımı, səsimi,
Deyəmmirəm dərdlərimi bir kəsə.

Dərdlərimi bəsləyirəm içimdə,
Bir ölçüdə, hamısı bir biçimdə.
Ömr - gün də keçir bir suiçimdə,
Deyəmmirəm dərdlərimi bir kəsə.

Ərşə çatmır nə harayım, nə ünüm,
Gecə kimi qara olmuş hər günüm.
Yumaq döyəm yumaqlanıb bükülum,
Deyəmmirəm dərdlərimi bir kəsə.

Keçirirəm günlərimi bir təhər,
Əl çəkməyir yaxamdan da dərd, kədər,
Dərgahıma söyləsəm də  hər səhər,

Deyəmmirəm dərdlərimi bir kəsə.

Dərdlər məni günü-gündən əritdi,
Dodağıma qıfıl vurub kiritdi,
Sürüyərək diziüstə yeritdi,
Deyəmmirəm dərdlərimi bir kəsə.

Daha məndə nə təqət var, nə dözüm,
Bu dünyanın zinətində yox gözüm,
Tükənibdir, bir kimsəyə yox sözüm,
Deyəmmirəm dərdlərimi bir kəsə.

## ZƏMANƏYLƏ SƏN ZARAFAT EYLƏMƏ

Zaman səni lap istəsə mum eylər,
Zəmanəylə sən zarafat eyləmə.
Cismi canı torpaq eylər, qum eylər,
Zəmanəylə sən zarafat eyləmə.

Uşaq kimi ağılını aldadar.
Sevincini əldən alar, ağladar,
Zəhər verər ağızında bal dadar,
Zəmanəylə sən zarafat eyləmə.

Ömür verər - otuz, əlli, ya da yüz,
İki üzü lap eyləyər min bir üz.
İnad olma, inadından gəl əl üz,
Zəmanəylə sən zarafat eyləmə.

Gözləmədən sənə elə dərd verər,
Verəndə də bir-birindən sərt verər.
Kədəri də, sevinci də mərd verər,
Zəmanəylə sən zarafat eyləmə.

Ad-san verər, el içində sevdirər,
Min nəğməylə eynin açıb dindirər.

Mələk kimi könlün alıb güldürər,
Zəmanəylə sən zarafat eyləmə.

O istəsə xəlbir edər fələkdən,
Un tək səni lap keçirər ələkdən.
Çalışsan da qurtarmazsan kələkdən,
Zəmanəylə sən zarafat eyləmə.

Varın olsa, demə:- dünya mənimdi,
Kef çəkəndə demə:- kefli dəmimdi.
Dərdli olsan, deyəcəksən: - qəmimdi,
Zəmanəylə sən zarafat eyləmə.

Dövlət verər, əqlin çaşar görəndə,
Var-yoxunu əldən alar bir gündə.
Beşarşın ağ apararsan öləndə,
Zəmanəylə sən zarafat eyləmə…
Zəmanəylə sən zarafat eyləmə.

## NƏLƏR GÖZLƏYİR SƏNİ

Xəstədir dağların qarından uman,
Qaralan gözlərə tez çökər duman,
Sağalmaz dərdlərə yox, dəva-dərman,
Qabaqda gör nələr gözləyir səni.

Özünə doğru yol seç, vədən gəlir,
Ayrılıq badəsin iç, vədən gəlir,
Əmrin verilibsə, köç, vədən gəlir,
Qabaqda xeyir-şər gözləyir səni.

Duracaqdır iki mələk yan-yana,

Günahların sadalansa, sən sana,
Kim istər cəhənnəm odunda yana,
Qabaqda da məşhər gözləyir səni.

Ölüm göz ilə qaş arasındadı,
Qismət yoxsa bəxtin qarasındadı,
Sə'di ölüm – qalım davasındadı,
Dözərək bir təhər gözləyir səni.

## DÖZÜM VER ALLAH

Bu dərdi könlümdən kötür nə olar,
Dumanda, çisgində itir nə olar,
Axan ulduzlara ötür nə olar,
Kəsib qarşısını saxlayım Allah!
Qəm gələn yolları bağlayım Allah!

Gələn bu dərdləri necə əyləyim?
Qabağıma qatıb necə teyləyim?
Əlaçsız dərdimi kimə söyləyim?
Mənə bir qədər də dözüm ver, Allah?
Özüm öz günümə ağlayım, Allah!

Saçlarını yolub məni kim ağlar?…
Dözməyib köksünü çarpaz kim dağlar?
Yasımı bir illik axı, kim saxlar?
Əziyyət verməyim kimsəyə, Allah!
Özüm öz yasımı saxlayım, Allah!

## RƏHMƏT DEYİB YAD EYLƏR

Gələn gəlir, bu dünyada qalmayır,

Çox çalışır əvəzini almayır.
Heç bir çıraq səhərəcən yanmayır,
Dağlar var ki, gah alçaqdır, gah uca,
Ölüm baxmır bu cavandır, ya qoca.

Heç bir kəsə qalmır ata, nə ana,
Qurulmuşdur beləncinə zamana.
Yurd yerində oğul gəlsə imana,
Ocaq çatıb, ocaqları yandırar,
Uluların ruhunu şadlandırar.

Nəsihəti qanana de, ay Sə'di!
Vəsiyyəti yanana de, ay Sə'di!
Niyyətini, anana de, ay Sə'di!
Yada salan gəlib ruhun şad eylər,
Xatırlayıb rəhmət deyib, yad eylər…

## KİTABIN İÇİNDƏKİLƏR

Müəllifdən……………………………………………..

### *VƏTƏNİN QUCAĞINDA*

Vətən! Ey Vətən!.................................................
Ulu Borçalıda, ulu diyarda……………………………
Burada gözəllər al yanaq olur………………………
Dinər təbiət……………………………………………
Orda günəş al-qırmızı doğardı……………………..
Borçalı övladıyam……………………………………
Uzun ömr sürəsən……………………………………..
Ötürdü…………………………………………………
Ellər – ellər……………………………………………
Yurd yiyəsi biri mənəm……………………………
Güman gəlmir bir də daha…………………………
Haray dağlar…………………………………………..
Tapşırıram sənə dağlar……………………………
Hanı ağbirçək nənələr……………………………..
Haraya ellər……………………………………………
Axtarıram………………………………………………
Vətənin qucağında……………………………………
Qədiroğlu, nə gəzirsən?..........................................
Bu görüşə döz ürəyim………………………………
Ayrı............................................................................
Dərdim çoxalıb, çoxalıb..........................................
Sən Allah, salmaynan yada dağları..........................
Baxıram.....................................................................
Uçaydım Vətənə sarı................................................
Yazacam mən............................................................
Başkeçiddədir…………………………………………
Dağlar…………………………………………………
Borçalı qızı……………………………………………

Qismət olsa ……………………………………………
Görəydim.............................................................
O xoş çağlarımın sorağındayam……………………
Ay dədəm oğlu……………………………………..
Atalar verməmiş yada sirrini……………………….
Bilmirəm vətənsiz haralı canım…………………….
Tənha qocaların haqlı gileyi…………………………
Birləşin ey Türk oğlu ……………………………….
Kövrəldib ağladır məni ……………………………..
Qarabağ Vətənin ağrıyan yeri ………………………

## *BİR ANAM VAR, BİR VƏTƏN*

Ay nurani Anam, pirani Annam……………………..
Bir Anam var, bir Vətən…………………………….
Özünə qurban olum…………………………………….
Ağlardı sənsiz………………………………………….
Mənimçün müqəddəsdin, pir idin……………………
Könlüm layla istər……………………………………
Qalmayıb məndə dözüm………………………………
Al məni qoynuna, üşüdüm, Ana ………………………

## *MƏNİ SEHİRLƏYİB BİR ŞEYDA BÜLBÜL*

Bahar çağıdı ……………………………………………
Ey çəmən, ətrindən doya bilmirəm……………………
Təbiətə bəzəkdir…………………………………………
Bahar gələndə, gələndə…………………………………
Gedək dağlara, dağlara ………………………………
Qönçəni açan gördüm ………………………………….
Novruzum, ay novruzum ……………………………….
Dağları, daşları necə dindirir ……………………………
Oxu, bülbülüm, oxu……………………………………….
Dil olmasaydı ……………………………………….
Siz gözləyin……………………………………….
Ağılmı başımdan alan çiçəklər ……………………

Otların şehinə qoy batım indii……………………

## *SALAM GÖNDƏRİRƏM*

Söylə……………………………………………….
Bənzəmir bizim dağlara …………………………..
Necə də yaraşır qara xal, gözəl ……………………
Ağrın alım, o, havanı bir də çal ……………………
Çal  ay gözəlim  ……………………………………

## *SEVMƏSƏN MƏNASI NƏDİR, O, ÖMRÜN*

Səni görəndə ……………………………………….
Yaşa sevgilim ………………………………………
İnsafın olsun ………………………………………..
Yaşadacaq bu dünyada ……………………………..
Al könlümü, güldür məni danışdır …………………
Özün Leyli deyildin …………………………………
Bu taleyə, bu qismətə nə deyim ……………………
Qalıbdır sənsiz ………………………………………
Bilmirəm……………………………………………….
Nələr çəkib…………………………………………
Axtarıram, hardasan…………………………………
Qalıbdırmı yadında……………………………………
Ürəyimi oynatdı, mənim……………………………
Can alıb gedir…………………………………………
Gül gözəl……………………………………………..
Yaraşır………………………………………………
Ay qız………………………………………………….
Unut məni, unut, sən………………………………..
Sən gəlməyəndə……………………………………..
Ölləm, dərdindən-dərdindən……………………….
Sənə layla çalan mənəm…………………………….
Sənsiz yaman darıxmışam…………………………..

Nazınla sən məni öldürəcəksən……………………
Dərdlərimi bölən oldu………………………………
Sənin məhəbbətin, məhəbbət deyil…………………
Sən yaz eşqimi………………………………………
Gözlərin necə də nurludu sənin……………………
Qoca çinar……………………………………………..
Bağlaya bilsəm……………………………………..
Vəfasız demə…………………………………
Qucağında…………………………………………….
Apar sən məni………………………………………
Mənə təsəllidir xatirələrin…………………………..
Mən səni sevdim ki…………………………………….

## *ATALAR DEMİŞ*

Atalar demiş…………………………………………….
Gərək olsun…………………………………………
Oğul əfəl çıxsa………………………………………
Gizlənə bilməzsən min dona girsən………………..
Heç nə əbədi deyil…………………………………
Həyatda əzizim ………………………………..
İnsan öz nəfsini saxlasın gərək……………………
Kim səni yad etsə…………………………………
Şe'r…………………………………………………
Unudammaz bu dağ məni, çöl məni………………
Dost olmaz…………………………………………
Yaman keçdi, bahar-yazı ömrümün………………
Sevindir……………………………………………
Bu qocalıq deyil, söylə bəs nədir………………….
İnsan yaşa dolduqca………………………………
Gec deyil hələ……………………………………..
Çiçəyə qarışıb……………………………………..
Könlüm……………………
Gözlərim dola-dola……………………………….

Sə’di bir el ozanıdı……………………………..
Qoru…………………………………………….
Gülən olmadı, olmadı…………………………..
Nəğmələrim dilə düşdü………………………..
Nəğmə qoşar qağa……………………………….
Gözüm dolub bulud kimi……………………….
Tök başımdan……………………………………..
Bacılar……………………………………………..
O şirinlik harda qaldı görəsən…………………….
Saçım ağdır
Çətin ki, tez unudulam……………………………
Doğma əzizdi……………………………………..
Bizə doğma Vətəndi………………………………………
Biz bir yolun yolçusuyuq……………………………….

## *QURTARMAQ OLMAYIR EL QINAĞINDAN*

Könlüm……………………………………………
Getdi………………………………………………
Könlüm viran qalmış ellər kimidi…………………….
Nələr çəkdim istəyimə çatınca……………………….
Dindirməyin məni……………………………………
Dağ çəkə bilməz……………………………………..
Dağlar neyləsin………………………………………
Bəs onda biçarə Sə'di neyləsin……………………….
Qocaldan  məni………………………………………
Vallah…………………………………………………..
Qoy desin……………………………………………
Nədəndir……………………………………………..
İstəyimi edəmmirəm…………………………………
Bu dünyadan kim doyub ki, mən doyam……………….
Dünya…………………………………………….
Olmasaydı……………………………………….....
Saxlaya bilmirəm qalan ömrümü……………………
Uduzdum……………………………………………..
Qorxmuşam…………………………………………..

Dözəmməz……………………………………………
Qəm gölündə bataram mən………………………………
Gedər…………………………………………………
Qoru saxla…………………………………………….
Mənimlə işin olmasın……………………………………
Qoru sən Allah………………………………………..
Göndər Süleymanı, sən yer üzünə……………………….
Ey fələk…………………………………………
Deyəmmirəm dərdlərimi bir kəsə……………………
Zəmanayla sən zarafat eyləmə…………………………
Nələr gözləyir səni……………………………………..
Dözüm ver Allah
Rəhmət deyib, yad edər…………………………………

Naşiri:

Redaktorlar:
**Mədəd Coşqun**

Texniki redaktoru:

Kompüterdə yığan:
**Yaradanquliyeva Nailə Qədir qızı**

Yığılmağa verilmiş:
Çapa imzalanmış:
Format 70 x 90 . 1/32.
Tiraj: 300 nüsxə. Sifariş 05
Qiyməti müqavilə ilə.

Bakı şəhəri, 2011

SƏ'Dİ YARADANQULU
(Sə'di Qədir oğlu Yaradanquliyev)

# VƏTƏNİN QUCAĞINDA

1954-cü ildə Ulu Borçalıda, Başkeçid (Dmanisi) rayonunun ən qədim kəndlərindən biri olan Salamməlik kəndində anadan olub.
“Bir ağacın pöhrəsiyik” tarixi sənədli əsərindən , “Əzizdir bu yerlər mənə”, “Könlümə təsəlli söz axtarıram” və “Ürəyimə dəyməyin” şerlər kitabından sonra müəllifin oxucularla beşinci görüşüdür.